UNİKAL

№01 (2231) 10 yanvar 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# İlham Əliyevin son bəyanatları regionda gərginlik yaratmaq istəyənlərə açıq mesajdır



Səh. 9

## Sabiq nazirlə bağlı 46 milyon manatlıq müəmma

*Qəbələ rayonunda cəmi 16 il əvvəl istifadəyə verilmiş Müalicə-Diaqnostika Mərkəzinin binası indi baxımsız vəziyyətdə qalıb. Ötən ilin yayından etibarən Mərkəzdə stomotologiya xidmətləri istisna olmaqla bütün tibbi xidmətlər dayandırılaraq, rayonda yeni istifadəyə verilmiş Mərkəzi Xəstəxanaya köçürülüb. Sözügedən xəstəxana 2024-cü il aprelin 9-da istifadəyə verilib, ölkə başçısı açılış mərasimində iştirak edib. Qəbələ sakinlərinin "Azpolitika"ya verdiyi məlumata görə, Müalicə-Diaqnostika Mərkəzində bir neçə stomotoloq, diş texniki fəaliyyət göstərir, bina mühafizəsiz qalıb və müxtəlif şəxslər tərəfindən yararsız vəziyyətə salınır. Binaya sərf olunmuş bəzi tikinti materialları oğurlanıb, yağış, külək də öz izlərini buraxır. Belə davam edərsə...*

Səh. 5

## "Bu kimi hallar sülhün əldə olunmasına mane törədən amillərdir"



*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, Ermənistanda gedən silahlanma prosesindən, bu ölkənin silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasından və Zəngəzur dəhlizinin açılmasının mümkünlüyündən danışıb.*

Səh. 4

## Qərbi Azərbaycan İcması Paşinyanı dialoqa çağırdı




*Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın bu gün mətbuata verdiyi açıqlamasında Qərbi Azərbaycan məsələsi və Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinə dair ifadə etdiyi fikirlərin bəzilərinə cavab verib. "Unikal" İcmanın cavabını təqdim edir:*

Səh. 2

## Zaur Hüseynovun vəzifəsini itirməsinin gizlinləri...



*Məlum olduğu kimi, ötən ilin sonlarında - dekabrın 20-də ölkə başçısının sərəncamı ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri Zaur Hüseynov vəzifəsindən azad edilib, onun yerinə Vüsal Aslanov təyin olunub. Bir çoxlarının fikrincə, Z.Hüseynovun vəzifəsindən uzaqlaşdırılması sürpriz deyil.*

Səh.8

# "Mən olmasaydım Namiq 5 ildən bir mahnı yazardı" - Aygün Kazımova



***Xalq artisti Aygün Kazımova yaxın zamanlarda meyxanaçı Namiq Qaraçuxurlu ilə duet oxuyacaq.***

"Unikal" xəbər verir ki, bu barədə xalq artisti "Zaurla Günaydın" verilişinə deyib. "Planda var ki, yaxın zamanda Namiqlə duet oxuyaq. Bir neçə mahnıya qulaq asmışıq. Əvvəl mən həvəsləndirirdim şairə təb gəlsin. Mən olmasaydım Namiq 5 ildən bir mahnı yazardı" deyə bildirib.

"Bir insanın həyatında bu qədər möcüzələr olar? Olmalıymış, bu yollardan keçməli idim. Bu qədər büdrəməli, yıxılmalı idim. Doğru nəticə götürdüyüm üçün ayağa qalxmışam. Hər adam yıxılanda qalxa bilmir". Pop kraliça yaşadığı çətinliklərdən danışıb. Kazımova keçirtdiyi uğursuz plastik əməliyyatdan söz açıb: "Hətta bir dəfə yıxılanda dedim, qalxa bilməyəcəyəm. Amma elə durdum ki, getdim Kristal Zalda konsert oldu. 2014-2015-ci ildə uğursuz əməliyyat oldu. Həyatda hər şey olur, düşünməyin ki, məndə uğursuz əməliyyat olmayıb. Düşündüm ki, ayağa qalxa bilməyəcəyəm, nəinki səhnəyə çıxmaq. İl yarım mən gəzə bilmədim. Təsəvvür edin nə demək idi. Uşaq kimi addım atırdım. Yeni ayaq açan uşaq kimi yeriyirdim. Nə qədər əməyin, məşqin nəticəsində plastikamı gətirib bura çıxartdım. Hətta otura bilmirdim. Onları yaşamalı idim ki, gəlib belə Aygün olum.

Başına gələn başmaqçı olur. Nə qədər ağır imtahandan keçirsən o qədər güclənirsən. Bu gün özümə güclü deyə bilərəm. Baxıram həyatıma, deyirəm nələr atlatmışam, nələrdən keçmişəm".

# "TikTok azərbaycanlılar üçün deyil" - Nadir Qafarzadə

***"32 ildir ailəliyəm. Davalar da, barışıqlar da olub. Amma ailəmizi qoruyub saxlamışıq. Köhnələrdənəm".***



Bu sözləri müğənni Nadir Qafarzadə "Xəbərin var?" verilişində deyib. Sənətçi ailələrin dağılma səbəbindən danışıb.

O bildirib ki, sosial şəbəkələr və telefon ailələrin dağılmasına səbəb olur: "Bəziləri deyir, həyat mənimdir, başqası nə düşünür önəmli deyil. Mənə önəmlidir. Abır-həyanı qorumaq lazımdır. Düşünürəm ki, bunu etsəm, nə deyərlər? Uşaqlarım var axı. Dörd divar arasında nə edirsən et, ondan kənara çıxma. Yoxsulluq da yaşamışıq, çörəyə görə dalaşmamışıq. Yoldaşım gözütoxdur. Adam qarına, kürkə, telefona görə boşanır? Bizim söz-söhbətimiz uşaqlara görə olub. Analar ört-basdır edir hər şeyi. Hər şeyi ictimailəşdirmək olmaz.

Telefonu çıxardan səhv edib. Sosial şəbəkə bizim üçün deyil. Biz azərbaycanlılar bundan düzgün istifadə edə bilmirik. Adi TikTok-a baxıram. Həkim çıxır +18 söhbət edir. Çılpaq şəkildə olmaz. Bu qədər acsınız? Mən kişi olaola həkimlərin söhbətindən utanıram. İşimdir deyib, hər şey danışmayın. Bunu cəmiyyətə danışmaq...

Boşanmaların səbəbi bilirsiniz nədir? Biri yaxşı yaşayır, başlayır paylaşır: sevgilim mənə bunu aldı, evim budur. Bir başqası da universitet qurtarıb, 300 manata işləyəcəyini düşünür. Deyir, nəyimə lazımdır. Gedib bu həyatı yaşayım. Qadınlar TikTok-da küçə söyüşünü keçiblər".



## "Soruşdu ki, üzünüzdə niyə qırış yoxdur?" - Fədayə Laçın

***Müğənni Fədayə Laçın paylaşımı ilə diqqət çəkib.***

Müğənni getdiyi gözəllik mərkəzində çalışan xanımla söhbətini yayımlayıb.

"Salonda qız soruşdu ki, neçə yaşınız var? Dedim, iyunun 3-ü 49 yaşım olacaq. Heyrətlə dedi ki, üzünüzdə qırış yoxdur. Siz Allah, mənim üzümün qırışan vaxtıdır? Hələ mənim gələcəyim qarşıdadır" deyə, Fədayə bildirib. /Axşam.az

## "Ərimin 7-sində göz yaşımı silib, toy oxumuşam" - Samirə Yusifqızı

***Müğənni və meyxanaçı Samirə Yusifqızı etirafı ilə gündəm olub.***



Milli.Az xəbər verir ki, "Elgizlə izlə" verilişinə qonaq olan ifaçı həyat yoldaşı Fazil bəyin 7 mərasimi günü toyda oxuduğunu etiraf edib.

"Həyat yoldaşımın 7-də göz yaşımı silib, toyda oxumuşam" - deyə, Samirə bildirib.

Sənətçi bildirib ki, müğənnilik onun işidir və o övladlarınınn dolanışığını təmin etmək, o cümlədən yas xərclərini ödəmək üçün məcbur bu addımı atıb.

Xatırladaq ki, Samirənin həyat yoldaşı 52 yaşında vəfat edib. Onlar ailə qurarkən Samirə 18, Fazil bəy isə 40 yaşında olub. Bu barədə ifaçı televiziyalardan birinə müsahibəsi zamanı qeyd edib. /baku.ws

## Mətanət İsgəndərlinin altıncı nəvəsi oldu

***Əməkdar artist Mətanət İsgəndərlinin altıncı nəvəsi dünyaya gəlib.***

Axşam.az xəbər verir ki, bu barədə aparıcı Ayətkin Mərdanova "Qonaqcanlı" verilişində bildirib. O, sənətçinin qızı Ülkərin oğul övladı olduğunu bildirib.

Proqramda qonaq olan müğənni xəbəri təsdiq edib. O, nəvəsinə Enginhan adının verildiyini açıqlayıb.

Qeyd edək ki, Ülkər Engin adlı türk vətəndaşı ilə evlidir. Antalyada yaşayan cütlüyün bir qızı da var.

01_27 IYUI-QARA.qxd 1/9/2025 8:13 PM Page 3



## Mərkəzi Bankın yeni qərarı kredit faizlərinə necə təsir göstərəcək? - Açıqlama



***"Mərkəzi Bank bankların məcmu və 1-ci dərəcəli kapitalı üzərində 0.5% həddində əlavə kontr-tsiklik kapital buferi təyin edib. Bunun bank sektorunda müşahidə edilən yüksək kreditləşmə dinamikası, bankların mənfəətliliyi və maliyyə dayanıqlılığı göstəriciləri və xüsusən də cəmi kredit portfelinin ÜDM-ə nisbətinin uzunmüddətli trendi və cari göstəricisi arasındakı fərq nəzərə alınmaqla qəbul olunduğu bildirilir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, kontr-tsiklik kapital buferi Basel III tənzimləyici kapital çərçivəsinin bir hissəsidir:

"Bu kreditlərin həddindən artıq artımı dövrlərində əlavə kapital yaratmaq mexanizmidir və məqsəd riskləri tənzimləməkdir. Digər tərəfdən, bu bufer bank sektorunun kapital tələblərinin bankların fəaliyyət göstərdiyi makromaliyyə mühitini nəzərə almasını təmin etmək məqsədi daşıyır. Onun əsas hədəfi bank sektorunu dövrü sistem miqyasında riskin yüksəlməsi ilə bağlı izafi məcmu kredit artımlarından qorumaq üçün daha geniş makroprudensial mühitə nail olmaqdır. Əksər inkişaf etmiş ölkələrdə 1-ci dərəcəli kapitalı üzərində 0% həddində əlavə kontr-tsiklik kapital buferi təyin edilsə və ya bufer təyin edilməsə də, bir sıra dövlətlərdə, o cümlədən Danimarka (2.5%), Norveç (2.5%), Böyük Britaniya (2.0%), Niderland (2.0%), İsveç (2.0%), İrlandiya (1.5%), Çex Respublikası (1.25%), Fransa (1.0%), Avstraliya (1.0%), Koreya (1.0%), Honq-Kong (1.0%), Almaniya (0.75%) əlavə hədlərindən istifadə olunur. Bununla yanaşı, hələlik ABŞ, Çin, Yaponiya, İtaliya, İspaniya, Kanada, Hindistan kimi böyük iqtisadi güclər buferdə hədlərdən istifadəyə lüzum bilmirlər".

Deputatın sözlərinə görə, bir sıra ölkələrin təcrübəsi göstərir ki, bəzi hallarda bu bufer real iqtisadiyyatın göstəricilərinə neqativ təsir etməklə bank sistemində əlavə kredit itkiləri ilə nəticələnə bilər:

"Bu baxımdan, Basel III tənzimləyici kapital çərçivəsinin tətbiqi digər makro-iqtisadi göstəricilərə təsirlər tam qiymətləndirilərək tətbiq olunur. Azərbaycna Mərkəzi Bankının açıqlamasında bildirilir ki, 2024-cü ilin noyabr ayının sonuna olan məlumatlara əsasən kredit portfelinin illik artımı 19.6% təşkil edib ki, bu da nominal qeyri-neft-qaz ÜDM-in artımını 2 dəfəyədək üstələyir. Əlavə olunur ki, fəaliyyətdə olan 22 bankın 19-də kredit portfeli artıb, o cümlədən 14-də isə kredit portfelinin illik artımı nominal qeyri-neft-qaz ÜDM-in artımını üstələyib. Göründüyü kimi, requlyator bankda kredit portfelinin artım tempininin qeyri-resurs ÜDM-dəki artımı üstələməsinə əlavə kontr-tsiklik kapital buferin tətbiqində əsas səbəblərdən biri yaşırlar".

V.Bayramov əlavə edib ki, Azərbaycan kredit portfelinin ÜDM-də payı hələ də aşağıdır: "Belə ki, 2023-cü ilin yekunlarında bu nisbət 18.8 faiz idi (23.183 milyard manatlıq kredit portfeli/123.0 milyard manatlıq ÜDM). Dünya Bankının məlumatına görə, ölkəmiz üçün bu nisbət hazırda 23.15 faizdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici Birləşmiş Ştatlarda 192.0% (2 dəfəyə yaxın), Böyük Brtianiyada 144.0%, Fransada 120.0%, Avstraliyada 133.8%, Almaniyada 84.0%, Brazliyada 71.78%, Gürcüstanda 66.0%, Rusiyada 54.22%, Türkiyədə 45.59%, Belarusda 29.17 faizdir. Avropa İttifaqında orta göstərici isə 79.0 faizdir. Azərbaycanda özəl sektora verilən kreditlərin ÜDM-də payı nəinki inkişaf etmiş, hətta əksər region dövlətləri ilə müqayisədə aşağıdır. Bu həm də o deməkdir ki, kreditləşmədə artım faizlərinə rəğmən ölkə iqtisadiyyatı ilə müqayisə etdikdə kredit portfelinin həcmi heç də böyük deyil. Mərkəzi Bankın bu qərarının kreditləşməyə təsirlərinə gəldikdə isə kommersiya bankları tərəfindən daha konservativ kredit siyasətinə üstünlük veriləcəyi istisna deyil. Bu bəzi banklarda kredit portfelinin optimallaşması və bir sıra hallarda isə müqayisəli azalmasına səbəb ola bilər. Kredit faizlərinə təsirlərə gəldikdə isə 2024-cü il depozit faizlərinin artması kimi yadda qaldı. Bunun isə kreditləri bahalaşdıracağı gözləniləndir. Bu, depozit siyasətinin optimallaşdırılmasını daha da aktuallaşdırır".

Qeyd edək ki, Mərkəzi Bankın bu normativinin tətbiqinə bu il martın 1-dən başlanılacaq.

# Zaur Hüseynovun vəzifəsini itirməsinin gizlinləri...

## "Bakı Metropoliteni"nin keçmiş rəhbərinin postundan uzaqlaşdırılmasında iki səbəb həlledici rol oynayıb

***Məlum olduğu kimi, ötən ilin sonlarında - dekabrın 20-də ölkə başçısının sərəncamı ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri Zaur Hüseynov vəzifəsindən azad edilib, onun yerinə Vüsal Aslanov təyin olunub. Bir çoxlarının fikrincə, Z.Hüseynovun vəzifəsindən uzaqlaşdırılması sürpriz deyil. Yerli medianın yazdığına görə, onun işində yol verdiyi nöqsanlar, metropolitenin fəaliyyətini lazımi səviyyədə qura bilməməsi 2014-cü ildən bəri tutduğu postla vidalaşmasını şərtləndirib.***

Məsələn, "Bakupost" yazır ki, "Z.Hüseynov 10 ildən artıq müddətdə Bakı Metropoliteninə rəhbərlik etsə də, paytaxt sakinlərinin rahat və ucuz olduğu üçün ən çox istifadə etdiyi nəqliyyatın işində dönüş yarada bilmədi. Bir neçə yeni stansiyanın açılışını (onların tikintisinə əvvəlki rəhbərliyin vaxtında başlanmışdı) nəzərə almasaq, ötən 10 il ərzində metro təsərrüfatında ciddi yeniliklərin baş verdiyini söyləmək çətindir".

Elə bizim də əldə etdiyimiz məlumatlarda sabiq sədrin kreslosu ilə vidalaşmasının təəccüblü olmadığı vurğulanır. Onun tutduğu vəzifədən kənarlaşdırılması əsasən iki səbəblə izah edilir. Bunlardan biri son illərdə gediş haqlarının artırılmasına və dövlət büdcəsindən ciddi miqdarda dotasiya ayrılmasına baxmayaraq Bakı Metropoliteninin külli miqdarda borcunun yığılmasıdır. Məsələ orasındadır ki, sözügedən QSC-nin nizamnamə kapitalı 2 milyard 580 milyon 638 min manat, ötən ilin əvvəlində vergi borcu 17.2 milyon manat, yığılmış zərəri 560 milyon manatdan çox olub. Həmçinin bu il dövlət büdcəsindən QSC-yə 50.1 milyon manat subsidiya ayrılıb ki, buna da səbəb metropolitenin sərnişindaşımadan əldə etdiyi vəsaitlərin xərcləri qarşılamadığı göstərilir.

Digər tərəfdən 2023-cü ilin əvvəlindən metroda bir gedişin qiyməti 30 qəpikdən 40 qəpiyə qədər yüksəldilib, bu da 21.94 mln. manatlıq əlavə gəlir gətirib. Ötən ilin 30 iyununda isə gedişhaqqı daha 10 qəpik artırılaraq 50 qəpiyə çatdırılıb. Hesablamalara əsasən, bu artım metro üçün 11.32 mln. manat əlavə gəlir demək idi. Lakin sadalananlar fonunda "Bakı Metropoliteni" QSC-nin maliyyə tablosu heç də ürəkaçan sayılmır.

Təsadüfi deyil ki, Zaur Hüseynovun sərəncamı oxunmazdan bir qədər əvvəl qurumdan mətbuata "Bakı Metropoliteni"nin Bənövşəyi xətti üzrə inşa edilən, şərti adı "B-4" olan metro stansiyasının tikintisinin dayandırıldığı açıqlanıb, səbəb kimi isə vəsait çatışmazlığı göstərilib. Bu məqamda isə diqqəti QSC-nin keçmiş rəhbərinin vəzifəsindən uzaqlaşdırılmasında ikinci mühüm səbəbə yönəltməkdə fayda var. Belə ki, yeni metro stansiyalarının tikintisi məsələsində Zaur Hüseynovun ümidləri doğrultmadığına diqqət çəkilir. O da maraqlıdır ki, "Bakı Metropoliteni"nin rəhbərliyində dəyişikliyin ardından - yola salmaq üzrə olduğumuz həftə dövlət rəhbəri yerli televiziya kanallarına müsahibəsində paytaxtda 10 yeni metro stansiyasının inşa ediləcəyini açıqlayıb. Prezident qeyd edib ki, yeni inşa ediləcək metro stansiyalarının yerləri artıq seçilib və bu ildən başlayaraq investisiyalar da qoyulacaq.

İnşa edilməsi planlaşdırılan metro stansiyalarından 6-sının "Bənövşəyi xətt" üzərində tikiləcəyi gözlənilir. Hazırda Cəlil Məmmədquluzadə küçəsində 4-cü stansiyanın tikintisi davam edir. Şərti olaraq "B4"-"B5"-"B?"-"B6"-"B7"-"B8" adlandırılan stansiyaların tikilib başa çatmasından sonra Xocaəsəndən başlayan "Bənövşəyi xətt" Ağ Şəhərə qədər davam edəcək. Yerdə qalan 4 stansiyanın isə "Yaşıl xətt" üzrə tikilməsi nəzərdə tutulub. Tikintinin başa çatmasından sonra "Xətai" stansiyası "Həzi Aslanov"la birləşəcək.



Konseptual sxemə görə, "Yaşıl xətt" Xətai, Nəsimi, Yasamal, Binəqədi, Nəriman Nərimanov, Nizami, Sabunçu və Suraxanı rayonlarını əhatə etməklə, ümumi uzunluğu 41,8 km olacaq . Perspektiv inkişaf planına uyğun olaraq, gələcəkdə bu xətt üzrə Bakı metrosunda ilk dəfə qatarların dairəvi hərəkəti təşkil olunacaq. 23 stansiyası olacaq xəttin hazırda 10 stansiyası istismardadır. Xəttin bir elektrik deposu inşa olunur, daha biri isə layihələndirmə mərhələsindədir.

Müxtəlif texniki həllərdən asılı olaraq 10 stansiyanın tikintisi üçün 3.8-4 milyard dollar investisiya lazımdır.

Yeri gəlmişkən, son zamanlar mediada və sosial şəbəkələrdə metropolitenin idarəçiliyindən şikayətlər də xeyli artmışdı. Bu sırada qatarların tunellərdə qalması, daşıma qrafikinin mütəmadi pozulması, QSC-nin keçirdiyi tenderlərlə bağlı müəmmalı məqamlar da vardı. Bütün bunları ümumiləşdirdikdə "Bakı Metropoliteni"nin sabiq sədrinin vəzifəsindən azad olunmasını təəccüblə qarşılamamaq lazımdır.

***Sənan Mirzə***

01_27 IYUl-QARA.qxd 1/9/2025 8:13 PM Page 4



# İlham Əliyevin son bəyanatları regionda gərginlik yaratmaq istəyənlərə açıq mesajdır

***Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibə hələ də müzakirə olunmaqdadır. Belə ki, Dövlət başçısının Azərbaycan-Rusiya, Azərbaycan-Ermənistan, Azərbaycan-İran, eləcə də ABŞ, Qərblə münasibətlərin mövcud durumu ilə bağlı dərin analitik fikirləri istər dünyada, istərsə də regionda ciddi proseslərin getdiyini ortaya qoyur. Ali Baş Komandanın Azərbaycanın milli və dövlət maraqlarını nəzərə almaq istəməyən, bəzi məqamlarda gözardı etməyə çalışan dövlətlərə sərt mesaj verməklə dövlətimizin apardığı müstəqil siyasətindən zərrə qədər geri çəkilmə olmayacağı bəyanatını da vermiş oldu.***

Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, yerli televiziya kanallarına verdiyi intervüdə cənab İlham Əliyevin Ermənistanla bağlı dediklərindən ümid etmək istərdim ki, qarşı tərəf düzgün nəticə çıxaracaq: "Haylar NATO-nun "mülki missiyası"nın qalma müddətini uzatmaq və Fransa kimi yırtıcı dövlətlərdən silah-sursat almalarına haqq qazandırmaq üçün sərhəddə gərginlik yaratmağa çalışmaqdansa, real sülh haqda düşünməli, bunun üçün gərəkən addımları atmalı, ilk növbədə faşizm ideologiyasından imtina etməlidirlər. Dövlət başçımız çox açıq şəkildə bildirdi ki, hay faşizminə Ermənistan rəhbərliyi son qoymasa, bunu Azərbaycan özü edəcək. Azərbaycan hay faşizmini məhv etməyə qalxanda nə baş verəcəyini isə yəqin ki, açıqlamağa ehtiyac yoxdur. Əslində cənab Prezidentin Zəngəzur dəhlizi ilə bağlı söylədiklərindən də bunu anlamaq olur. Dövlət başçımız açıqca bildirir ki, biz Ermənistanı indən sonra da özlərinin dedikləri kimi bufer funksiyası yerinə yetirməyə, yəni Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə olaraq qalmağa qoymayacağıq. "Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır", - bu xəbərdarlıq da cənab İlham Əliyevinkidir".

Millət vəkili onu da qeyd edib ki, Azərbaycan Prezidentinin Ermənistana sərt xəbərdarlıq edilən, onun havadarlarından birinin qarşısında açıq tələb qoyulan intervüsünün böyük reaksiya doğuracağı öncədən bəlli idi: "Mən İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianın Bakıya səfərini və ardınca da İrəvana getməsini məhz həmən reaksiyalardan biri kimi qiymətləndirirəm. Cənab Prezidentin qəbulunda olarkən Ermənistanın işğal dövründə "mədəni və dini abidələrimizi dağıtmasının, məscidlərimizi təhqirə məruz qoymasının, ibadət ocaqlarında donuz və inək saxlanmasının" bütün bunları özü də yaxşı bilən İran rəsmisinin diqqətinə niyə çatdırıldığı yəqin aydındır. Əli Əkbər Əhmədianın "regionda Azərbaycan ilə İranın mədəni, tarixi, dini, o cümlədən sivilizasiya əlaqələrinin bənzərsizliyi və bu cür qədim əlaqələri olan iki ölkəni tapmağın mümkünsüzlüyü" haqda fikirlərinin qarşılığında cənab İlham Əliyevin "xalqlarımızın çox sıx tellərlə bir-birinə bağlılığı"ndan söz salması da təbii ki, səbəbsiz deyil. Yəni Azərbaycan torpaqları işğal altında olanda da, 44 günlük savaş zamanı da, ondan sonrakı dövrdə də biz rəsmi Tehranın necə bir siyasət yeritdiyini unutmamışıq. Bununla yanaşı İranla qarşılıqlı faydaya dayanan əlaqələrin genişlənməsində maraqlıyıq, ilk növbədə də ona görə ki, orada yaşayanların böyük bir hissəsini təşkil edən soydaşlarımızla cənab Prezidentin təbirincə desək, çox sıx tellərlə bağlıyıq. Azərbaycan İrandan artıq heç nə ummur, istədiyimiz biz ona yanaşmada necə davranırıqsa, qarşı tərəfin də o cür hərəkət etməsidir. Edəcəksə, xeyli xub, etməyəcəksə, rəsmi Tehran bundan kimin daha çox itirəcəyinin indi heç vaxt olmadığı qədər fərqindədir".



S.Alıyevin fikrincə, təkcə İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibinin deyil, Avropa Birliyinin Cənubi Qafqaz üzrə özəl təmsilçisi Maqdalena Qrononun səfərini də cənab Prezidentin sözü gedən intervüsünə operativ reaksiya saymaq olar. "Dövlət başçımızın Avropa Birliyinin təmsilçisinə Azərbaycanla Ermənistan arasında danışıqlar prosesinin ikitərəfli müstəvidə aparıldığını xatırlatmasına niyə ehtiyac duyulduğunun cavabı onun yerli telekanallara verdiyi intervüdə 5 aprel Brüssel görüşü ilə bağlı dediklərindədir. Ötən il aprelin 5-də ABŞ və Avropa Birliyinin Ermənistana həm də hərbi xarakterli hərtərəfli dəstəyi haqda razılığa gəlinən o görüşdən sonra ABŞ də, Avropa Birliyi də öz vasitəçiliklərini Makroncasına bada verdilər. Çox ehtimal ki, Brüsselin vasitəçiliklə bağlı növbəti təşəbbüsünün qarşılığında danışıqların ikitərəfli formatda aparıldığı xatırladıldı. Mən belə düşünürəm ki, bu görüşlərin ardından Türkiyə Prezidenti cənab Ərdoğanın dövlət başçımıza telefon zəngi də bir növ həm haqqında söz gedən intervüyə, həm də intervüyə verilən reaksiyalara reaksiya xarakteri daşıyırdı. Hər iki Prezidentin əməkdaşlığımızın bütün sahələrdə bundan sonra "Bir millət, iki dövlət" prinsipi üzrə davam etdiriləcəyini vurğulamaları o deməkdir ki, yanvarın 7-də cənab İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı açıqlamasına da, Ermənistanla havadarlarına xəbərdarlığına da, İran rəhbərliyi qarşısında qoyulan tələbinə də iki dövlətin bir fikri kimi yanaşılmalıdır" -deyə deputat fikrini tamamlayıb.

Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Zəngəzur dəhlizinin açılması ilə əlaqədar Azərbaycan diplomatiyasının fəallığı Ermənistanla münasibətlərin gələcəyini əks etdirmək baxımından gücləndirilib. Onun sözlərinə görə, Zəngəzur dəhlizi məsələsi hələlik potensial hərbi eskalasiyasını tam əks etdirmir, çünki ehtimallar var ki, Ermənistan danışıqlarda gözlənilməz və sürpriz mövqe sərgiləyə bilər: "Buna baxmayaraq Zəngəzur dəhlizinə nəzarət mexanizmi üçün güc mərkəzlərinin rəqabəti Cənubi Qafqazda təhlükəsizlik şəraitinin pisləşə biləcəyi narahatlıqlarını da yaradır. Nəzarət mexanizmi üçün Rusiya 10 Noyabr Bəyanatının 9-cu maddəsinə istinad etməkdə inadkarlıq göstərə bilər. Lakin məsələ burasındadır ki, 10 Noyabr Bəyanatının Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi prizmasında qüvvəsi qalmayıb. ABŞ-nin mövqeyi isə Donald Trampın ikinci administrasiyasının strategiyası əsasında görünəcək. Hərçənd ki, ABŞ-nin Cənubi Qafqazdakı proseslərdə, o cümlədən Zəngəzur dəhlizi layihəsində Rusiyanı qabaqlamaqdan ötrü əvvəlki dövrlərə oxşar siyasəti izləyəcəyinə ehtimal vermək olar. Çin isə Cənubi Qafqazda iqtisadi mövqelərini və geosiyasi əhəmiyyətini durmadan artırır, bu da öz növbəsində Pekinin Azərbaycanın xeyrinə doğru strategiyasını gücləndirir. Böyük Britaniya isə Azərbaycanın regiondakı təhlükəsizlik və sülhlə əlaqədar prioritetlərinə dəstək göstərir. Azərbaycanın strateji müttəfiqi Türkiyə Bakının strateji şəkilləndirməsinin qarantı kimi böyük rola malikdir. Göründüyü kimi, Zəngəzur dəhlizi ilə əlaqədar güc fokuslanması rəqabətə əsaslansa da, bu, nəticə etibarı ilə Azərbaycanın sürətlə yeni reallıq yaratmasına şərait yaradır. Ermənistan bütün bunların qarşılığında dəhliz məntiqinə reaksiya göstərə bilmir, çünki onun direniş nümayiş etdirəcək potensialı yoxdur. Buna görə də, Ermənistan dəhlizin sülh gündəmi kontekstində qiymətləndirilməsini aparmalı və Azərbaycanın şərtlərini, tələblərini qəbul etməlidir. Əks təqdirdə, Azərbaycan qabaqlayıcı tədbirlər üçün dəhlizin açılmasını güc ssenarisi ilə reallaşdıra biləcək".

Milli Cəbhə partiyasının başqanın müavini, siyasi ekspert Məhəmməd Əsədullazadə isə bildirib ki, Azərbaycanla Ermənistan arasında danışıqlarda hər-hansı bir ölkə vasitəçi olmayacaq: "Bundan sonra nə Rusiya, nə də Avropa İttifaqının vasitəçiliyinə Azərbaycan imkan verməyəcək. Həmçinin ABŞ-da Tramp administrasiyasının prosesdə neytral qalması gözlənilir. Prezident İlham Əliyev ötən gün yerli TV-lərə verdiyi müsahibədə məhz ikitərəfli danışıqlara üstünlük veriləcəyini qeyd etdi. Hətta sülh müqaviləsi bağlanarsa, bu, iki ölkə sərhəddində baş tuta bilər. Hazırda Ermənistan silahlanır. Fransa Ermənistanı sülh prosesindən çəkindirməyə çalışır. N.Paşinyan siyasi iradə nümayiş etdirməsə, sülh müqaviləsi bu il ərzində bağlanmaya bilər. Artıq proses mürəkkəb mərhələyə keçib. Azərbaycana qarşı Rusiya və İranın müəyyən siyasi təzyiqlərə əl atması, N. Paşinyanı arxayın edirsə, strateji səhvə yol verir. Hazırda Türkiyənin regionda yeni güc əldə etməsi Ermənistan rəhbərliyini dilemma qarşısında qoyub. Çünki, Ankara hələ ki, Ermənistanla ciddi məşğul olmur. N. Paşinyan vəziyyəti mürəkkəbləşdirsə, Ankara hərəkətə keçə bilər. Əgər Ermənistan Fransanın təlimatı ilə hərəkət edib, təxribatlara gedərsə, bu ölkə ərazi itirməli olacaq. Prezident Ermənistan rəhbərliyinə "silahlanmanı dayandır" mesajını verdi. Növbəti dəfə hərbi eskalasiya baş verəcəksə, Ermənistan əhalisi Paşinyanı hakimiyyətdən devirə bilər. Məhz müxalifət də yeni müharibənin başlanmasında maraqlıdır. Demək olar ki, Ermənistan üçün çox çətin bir proses başlayıb. Regionda siyasi proseslər gərgin fazaya keçdiyi üçün prezident yerli TV-lər vasitəsi ilə Azərbaycanın ciddi mesajlarını vermiş oldu. Burada Rusiya, İran və Ermənistana ciddi mesajlar var. Xüsusilə Ermənistan rəhbərliyinin prosesləri düzgün analiz edib, praqmatik addımlar atması, yeni sülhə imkanlar aça bilər".

Müsahibimiz onu da qeyd edib ki, Azərbaycan İran və Rusiya ilə münasibətləri normal saxlamağa çalışıb, amma regional siyasi dəyişikliklər Tehran və Moskvanın dözümsüzlüyünü ortaya qoydu: "Hər iki qonşu ölkə Azərbaycana qarşı açıq təhdid siyasətinə keçdilər. Daima Azərbaycana qarşı Rusiya və İranın problem qonşu ölkələr olduğunun fərqindəyik. Azərbaycanın Türkiyə ilə müttəfiqliyi hər iki ölkədə narahatlıq yaradır. Azərbaycan Türkiyə ilə sıx siyasi əlaqələri kordinasiyalı etməli, ABŞ-la da strateji tərəfdaşlıq istiqamətində yanvardan sonra danışıqlar aparmalıdır. Azərbaycanın xarici siyasəti yeni mərhələyə keçməlidir. 30 il ərzində balans və manevr siyasəti indiki siyasi çağırışlara cavab vermir. Çünki, yeni siyasi nizam qurulur və balans siyasəti Moskva və Tehranın siyasətini neytrallaşdırılması istiqamətində yeni strategiya qurulmalıdır. Türkiyə prezidenti Ərdoğanın prezident İlham Əliyevə Tehran və Moskva arasında yaşanan siyasi böhran fonunda zəngi Ankaranın siyasi dəstəyi iki qonşu ölkəyə mesajıdır".

***M.İbrahimli***

01_27 IYUI-QARA.qxd 1/9/2025 8:13 PM Page 5



# Avropa İttifaqı Şurasının Prezidenti İlham Əliyevə zəng etdi



***Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

"Unikal" xəbər verir ki, Antonio Koşta təyyarə qəzası ilə bağlı dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığını çatdırıb, Avropa İttifaqının bu qəzanın hərtərəfli araşdırılması ilə bağlı ölkəmizin mövqeyini dəstəklədiyini bildirib.

Prezident İlham Əliyev başsağlığına görə təşəkkürünü ifadə edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin təmasların davam etdirilməsi razılaşdırılıb.

# İlham Əliyev Gürcüstanın Baş nazirinə başsağlığı verdi



***Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə başsağlığı məktubu göndərib.***

"Unikal"ın məlumatına görə, məktubda deyilir:

"Hörmətli cənab Baş nazir, Qali rayonunun Saberio kəndində baş vermiş yanğın nəticəsində beş uşağın həlak olması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olan uşaqların ailəsinə və yaxınlarına, bütün Gürcüstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm".

# Dünən İlham Əliyevlə, bu gün Paşinyanla müzakirə apardılar



***Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqının xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Qeyd edək ki, Paşinyan bu gün həmçinin İran Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian ilə də görüşüb.

Onu da deyək ki, Azərbaycan lideri İlham Əliyev həm Avropa İttifaqının xüsusi nümayəndəsini, həm də İranın Ali Dini Liderinin nümayəndəsini dünən Bakıda qəbul etmişdi.

***Ağarza Elçinoğlu***

# Eşidilən partlayış səsləri ilə bağlı MN-dən açıqlama

***Plana uyğun olaraq istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla Goran Təlim Mərkəzində məhv edilməsi prosesi həyata keçirilir.***



Bu barədə"Unikal"a Müdafiə Nazirliyindən bildirilib.

"Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq. Aparılan partlayış işləri yanvarın 11-dək davam edəcək", məlumatda deyilir.

# Qərbi Azərbaycan İcması Paşinyanı dialoqa çağırdı

***Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın bu gün mətbuata verdiyi açıqlamasında Qərbi Azərbaycan məsələsi və Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinə dair ifadə etdiyi fikirlərin bəzilərinə cavab verib.***

"Unikal" İcmanın cavabını təqdim edir:

"Bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan məsələsi ərazi deyil, insan hüquqları məsələsidir. Biz Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyimizi dəfələrlə ifadə etmişik. Qərbi Azərbaycan terminin gəldikdə, vurğulayaq ki, bu, tarixi həqiqətlərə əsaslanan və bizim özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdiyimiz anlayışdır. Ermənistan hökuməti coğrafi-tarixi məzmunda polemikaya girmək əvəzinə problemin mahiyyətinə dair mövqeyini ifadə etməlidir.

Qərbi azərbaycanlıların qayıdışına dair Ermənistan və Azərbaycan arasında dövlətlərarası dialoqun sülh müqaviləsinin imzalanmasından sonra aparıla biləcəyi barədə Nikol Paşinyanın məhdudlaşdırıcı şərti yanlışdır. Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və insan hüquqlarından irəli gələn öhdəliyidir. Ermənistan Respublikası Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərinin xarakterindən asılı olmayaraq, Qərbi azərbaycanlıların - indi Ermənistan adlanan ölkənin qanuni sakinlərinin qayıdışına şərait yaratmalıdır. Qayıdışa dair dialoqun süni şəkildə sülhdən sonraya saxlanması və yaxud qayıdışı dövlətlərarası dialoqla şərtləndirmək insan hüquqlarına ziddir və sülhün əldə edilməsinə xidmət etmir. Vurğulayaq ki, bu mövzuda əsas dialoq xətti Ermənistan hökuməti və Qərbi Azərbaycan İcması arasında aparılmalı olan formatdır.

Biz baş nazir Nikol Paşinyanı regionda sülh və əməkdaşlığın bərqərar olunması üçün səmimi səylər göstərməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə İcmamızla dialoqa başlamağa çağırırıq".

# "Hakimiyyətə qarşı çağırışlar etdiyimə görə peşmanam" - Dövlət xadiminə sui-qəsd hazırlamaqda təqsirləndirilən şəxsin etirafları

***Dövlət xadiminin həyatına sui-qəsd hazırlamaqda təqsirləndirilən şəxs Elşən Nəcəfovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən Elşən Nəcəfovun istintaqa verdiyi ifadəsi elan olunub.

O, ifadəsində dini ideyalarla yaşadığını, bəzi ölkələrə ürəkdən nifrət etdiyini bildirib.

Daha sonra Elşən Nəcəfov Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi və terrorçuluğa açıq çağırışlar yazılmış paylaşımlar etdiyinə görə də peşman olduğunu bildirib.

Daha sonra sənədlərin tədqiqi prosesi yekunlaşıb.

Proses fevralın 6-da davam edəcək.

Qeyd edək ki, Elşən Nəcəfovun 2023-cü ilin sentyabr ayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyat zamanı saxlanıldığı məlum olub.

Elşən Nəcəfova qarşı irəli sürülmüş ittihamda qeyd edilib ki, o, xarici ölkə ərazisində yaşayan digər Azərbaycan Respublikası vətəndaşı ilə əlbir olub xarici dövlət rəsmilərinin Azərbaycana səfəri zamanı onlara və Azərbaycanın dövlət və ictimai xadimlərinə qarşı ictimai tədbirdə imkan əldə edib terror hücumu etməyə hazırlıq hərəkətləri edib. Bu barədə qətiyyətini ifadə etdiyi və əlbir olduğu şəxsə göndərdiyi səs yazıları iş materiallarına əlavə edilib. Sonuncu Elşən Nəcəfova planı həyata keçirərkən öldürüldüyü halda "şəhid" hesab ediləcəyini bildirib.



Elşən Nəcəfov DTX əməkdaşları tərəfindən ifşa edilərək saxlanıldığından, iradəsindən asılı olmayaraq qeyd olunan terror əməllərini törətməyə cəhd edə bilməyib.

Ona Cinayət Məcəlləsinin 28, 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsdə hazırlıq), 214-2 (terrorçuluğa açıq çağırışlar), 167-3.1-ci (Dini ekstremist materialları, yəni dini ekstremist fəaliyyəti həyata keçirməyə çağıran və ya belə fəaliyyəti əsaslandıran, yaxud belə fəaliyyətin zəruriliyinə bəraət qazandıran materialları hazırlama, saxlama və ya yayma), 281.2 (Dövlət əleyhinə yönələn açıq çağırışlar) maddələri ilə ittiham elan edilib.

# Dövlətə xəyanətdə ittiham olunan şəxslərə hökm oxundu

***Dövlətə xəyanətdə ittiham olunan şəxslərin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.***



"Unikal" xəbər verir ki, bu gün Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Fəhmin Hümbətovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Hicran Həsənov 18 il, Nadim Mehdiyev 16 il 6 ay, Şəmsi Qasımov 15 il, Dağıstan Hüseynov 9 il, Elməddin Ağayev 7 il, Ağasif Ağayev 7 il müddətinə azadlıqdan məhrum olunub.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən təqsirləndirilən şəxslərin barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham elan edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5 N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

01_27 IYUl-QARA.qxd 1/9/2025 8:14 PM Page 6



# XİN-dən Paşinyana cavab: "...Ermənistanın "xoş niyyətinin" təsdiqi sayıla bilməz"

***Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın bugünkü bəyanatına cavab verib.***



"Unikal" xəbər verir ki, azərbaycanlı diplomat bu barədə özünün "X" hesabında yazıb.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Paşinyanı dediklərini sözdə yox, əməldə etməyə çağırıb: "Maraqlıdır ki, sizin "sülhsevər hekayəniz" regionda davamlı sülh və sabitliyin bərqərar olmasının ən mühüm sütunundan, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətdən yayınır.

Əgər Ermənistan həqiqətən də qonşuları ilə sülhün qurulmasında maraqlıdırsa, niyə hamınızın "Qərbi Ermənistan" və "Dağlıq Qarabağ Respublikası" adlandırdığınız ərazilərə Konstitusiyanızda və milli qanunvericiliyinizdə təsbit olunmuş iddialarından imtina etmək prosesinə başlamaqdan bütün vasitələrlə bundan imtina edirsiniz? Bağışlayın, amma sizin arqumentiniz Ermənistanın "xoş niyyətinin" təsdiqi sayıla bilməz".

***Ağarza Elçinoğlu***

# "Bu, hərbi qarşıdurmaya gətirib çıxaracaq" - Qabil Hüseynli

***Prezident İlham Əliyev yanvar ayının 7-də yerli televiziya kanallarına müsahibəsində Ermənistanın silahlanması məsələsinə toxunub. Dövlət başçısı bildirib ki, Ermənistanın silahlanması yeni gərginliyə gətirib çıxaracaq:***



"Biz bunu istəmirik. Biz sülh istəyirik. Ermənistan faktiki olaraq bölgə üçün təhdid mənbəyidir. Müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar".

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, yaxın vaxtlarda sülh planı olmasa, bu, hərbi qarşıdurmaya gətirib çıxaracaq: "Müharibə başa çatıb. Hər iki tərəf dəfələrlə sülh müqaviləsinin imzalanması ilə bağlı bəyanatlar veriblər, hətta vaxt qoyublar. Bu gün isə Ermənistanı Fransa və Hindistan silahlandırır. Hazırda Ermənistanın sülh müqaviləsindən kənara çəkilməsində ən böyük rolu Rusiya oynayır. Atəşkəs rejiminin sonuncu dəfə pozulmasının əsas səbəbini Rusiyada görürəm", - deyə o qeyd edib.

Q.Hüseynli əlavə edib ki, Ermənistanla Rusiya yenidən yaxınlaşmaqdadır: "Rusiya Ermənistanı yenidən şirnikləşdirib. Onlar bölgədə qalmağın yeni bir vasitəsi kimi Ermənistanla münasibətlərin əvvəlki vəziyyətinə, öz istədikləri zəminə gətirmək üçün qüvvələrini sərf ediblər. Ermənistanda isə bu proses ölkənin baş naziri vasitəsilə getmir. Bu prosesin başında duranlar Robert Köçəryan və Serj Sarkisyandır. Onlar özbaşına sərhəd rayonlarını gəzirlər, həmin əraziləri yoxlayırlar. Azərbaycanın ünvanına təhdidedici fikirlər səsləndirirlər. Bütün bunlar onu göstərir ki, Rusiya kəşfiyyatının agentləri olan Köçəryan və Sarkisyan həvəslə Rusiyanın tapşırıqlarının yerinə yetirilməsi üçün çalışırlar".

***Murad İbrahimli***

# "Azadlıqdan məhrum olunan fermerin ailə üzvlərinin iddiaları əsassızdır" - DİN

***Törətdiyi cinayət əməllərinə görə məhkəmə qərarı ilə 11 il 6 ay azadlıqdan məhrum olunan qubalı fermer kimi təqdim olunan Rəşid Məmmədovun cinayət işi üzrə ailə üzvlərinin iddiaları yayılıb.***



"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Quba rayon sakini, əvvəllər xuliqanlıq, qəsdən sağlamlığa zərər vurma maddələri ilə məhkum edilən Rəşid Məmmədovun qanunsuz əməllərindən zərər çəkmiş vətəndaşlar tərəfindən daxil olan çoxsaylı şikayətlər əsasında DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində cinayət işi başlanılaraq istintaq hərəkətləri aparılıb.

İstintaqla müəyyən olunub ki, 43 yaşlı R.Məmmədov müxtəlif vaxtlarda ayrı-ayrı vətəndaşların 68.000 manat, 34.000 manat, 10.000 manat, 11.900 manat, 13.090 manat, 23.800 manat və 7.500 manat məbləğində pul vəsaitlərini özlərinin və ya ailə üzvlərinin şəxsiyyətləri üzərində zor göstərəcəyi və ya əmlaklarını məhv edəcəyi ilə hədə-qorxu gələməklə ələ keçirib. Onun qanunsuz əməlləri istintaqla təkzibolunmaz dəlillərlə sübuta yetirilib.

R.Məmmədova zərər çəkmiş şəxslərin pulunu hədə-qorxu ilə tələb etməsi faktları üzrə ittiham elan edilərək cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Törətdiyi qanunsuz əməllərə görə məhkum edilən R.Məmmədovun ailə üzvlərinin həqiqətə uyğun olmayan iddiaları tam əsassızdır, barəsində olan ittihamlardan yayınmaq məqsədindən irəli gəlir, qərəzlidir, həqiqəti əks etdirmir.

# İlyas İsmayılovun vəziyyəti açıqlandı

***"İlyas İsmayılovun vəziyyəti ağır-stabildir".***



"Unikal" xəbər verir ki, bunu APA-ya açıqlamasında İlyas İsmayılovun yaxınları deyib.

Qeyd edilib ki, bir müddət əvvəl Türkiyədə müayinə edilən İlyas İsmayılov Bakıya qayıtdıqdan sonra burada müalicə edilib. Lakin sonradan səhhətində ağırlaşmalar baş verib.

Bir müddət əvvəl insult keçirən İlyas İsmayılov koma vəziyyətində Mərkəzi Klinikanın reanimasiya şöbəsinə yerləşdirilib. Hazırda palataya köçürülüb.

Qeyd edək ki, İlyas İsmayılov 1985-1990-cı illərdə Respublika prokuroru, 1992-1995-ci illərdə isə ədliyyə naziri kimi fəaliyyət göstərib. Milli Məclisin III və IV çağırış deputatı olub. 2001-ci ildən Ədalət Partiyasına sədrlik edir.

# İlqar Mustafayevin həbs müddəti uzadıldı



***Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin korrupsiya ittihamı ilə həbs edilmiş sabiq sədri İlqar Mustafayevin cinayət işi üzrə 4 aylıq ilkin araşdırma müddəti kifayət etməyib.***

Sözügedən səbəbdən prokuror məhkəməyə təqdimat verib. Təqdimatda təqsirləndirilən şəxsin həbsdə saxlama müddətinin daha bir neçə ay uzadılması istənilib. Məhkəmə təqdimatı təmin edib.

Qərara əsasən, İlqar Mustafayevin həbs müddəti 4 ay uzadılıb.

Qeyd edək ki, İ. Mustafayev Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib. O, 2 milyondan çox mənimsəmədə ittiham edilir.

# SİMA göndərilən mesajlarla bağlı açıqlama yaydı

***Bu gün SİMA İmza istifadəçilərinə səhvən bildirişlər gedib. Bu barədə vətəndaşlar sosial şəbəkələrdə paylaşımlar ediblər. Bəziləri hətta bildiriş mesajlarının bir neçə dəfə gəldiyini qeyd ediblər.***




"Unaikal" xəbər verir ki, məsələ ilə bağlı SİMA açıqlama yayıb.

Bildirilib ki, bu hal səhvən baş verib: "Hörmətli SİMA İmza istifadəçiləri, nəzərinizə çatdıraq ki, SİMA İmza tətbiqində bildiriş funksionallığının təkmilləşdirilməsi ilə bağlı bir sıra dəyişikliklər həyata keçirilir. Təkmilləşdirmə prosesi çərçivəsində bəzi istifadəçilərə səhvən test məqsədli bildirişlər göndərilib. Yaranmış narahatlıq üçün üzr istəyirik".

# Azərbaycanda regional təhsil idarəsində kütləvi ixtisar



***Lənkəran-Astara Regional Təhsil İdarəsində 18 əməkdaşı işdən çıxarılıb.***

"Unikal" "oxu.az"a istinadən məlumat verir ki, buna səbəb qurumda fəaliyyət göstərən metodiki kabinetin bağlanması olub.

Bildirilib ki, metodiki kabinet bağlanmasına görə Lənkəran, Lerik, Astara, Yardımlı, Masallı və Cəlilabad rayonlarının hər birindən metodist, kargüzarlar olmaqla 3 əməkdaş işdən çıxarılıb.

Qeyd olunub ki, çıxarılan şəxslərin yerinə isə başqa rayonlardan şəxslər gətiriblər. Kollec məzunu olanları isə fəhlə, texniki işçi adı ilə işdə saxlayıblar.

01_27 IYUl-QARA.qxd 1/9/2025 8:14 PM Page 7





# “BMT İlham Əliyevin müraciətini rəsmi sənəd kimi yayıb” - QAİ

***Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2024-cü il 5-6 dekabr tarixlərində Bakı şəhərində “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətini və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb.***

Bu barədə ”Unikal”a Qərbi Azərbaycan İcmasından bildirilib.

Qeyd olunub ki, Qərbi azərbaycanlıların öz doğma torpaqlarına geri qayıdışı ilə bağlı məsələni hər zaman diqqətdə saxlayan Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan mövzusunun beynəlxalq gündəlikdə profilinin artması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Eyni şəkildə, konfransın yekun sənədinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan İcmasının mötəbər qurum kimi beynəlxalq aləmdə qəbul edilməsi və konfransın nəticələrinin beynəlxalq aləmə çatdırılması baxımından səmərəli addım olub. Bu sənədlərin yayılması, sözügedən illik beynəlxalq konfransın qayıdış hüququ və ümumiyyətlə, beynəlxalq humanitar hüquq sahəsində beynəlxalq aləmdə ən mühüm platformalardan biri kimi qəbul edilməsinə böyük töhfə verir.

Xatırladaq ki, sözügedən sənədlərin yayılması ilə İcmanın təşəbbüsü ilə BMT-nin rəsmi sənədləri kimi yayımlanmış sənədlərin sayı 10-a çatıb.

Qərbi Azərbaycan İcması sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış məsələsini beynəlxalq qurumların gündəliyinə təqdim etməkdə davam edəcək. İcma bir daha Ermənistan hökumətini sələflərinin başlatdığı irqi ayrı-seçkilik siyasətindən əl çəkməyə, beynəlxalq hüquq çərçivəsində öhdəliklərini yerinə yetirməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağa çağırır.

# İctimai fəal Rail Abbasova hökm oxundu



***Dələduzluqda ittiham olunan ictimai fəal Rail Abbasovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

”Unikal”ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədriliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Rail Abbasov 6 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, prokuror ötən prosesdə çıxışında Rail Abbasovun 8 il azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, Rail Abbasov ötən il sentyabrın 20-də Rail Abbasov saxlanılıb. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham olunur. İstintaq orqanı ictimai fəalı ev alqı-satqısı zamanı dələduzluqda günahlandırır.

***Seymur Əli***

# “Bu kimi hallar sülhün əldə olunmasına mane törədən amillərdir”

## Arzu Nağıyev: “Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması imzalanması nəzərdə tutulan sülh müqaviləsinə mane olmaq, status-kvonu saxlamaq deməkdir”



***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev “Unikal”a müsahibə verib. O, Ermənistanda gedən silahlanma prosesindən, bu ölkənin silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutmasından və Zəngəzur dəhlizinin açılmasının mümkünlüyündən danışıb.***

***-Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı Qazax rayonunun dörd kəndinin erməni işğalından azad edilməsindən danışıb. Qeyd olunub ki, delimitasiya üzrə Azərbaycan və Ermənistan komissiyalarının növbəti görüşü olmalıdır. Bu istiqamətdə aparılan işləri necə qiymətləndirirsiz?***

-Cənab Prezident yerli televiziya kanallarına müsahibəsində ən mühüm istiqamət kimi delimitasiya və demarkasiya məsələsinin gündəmdə olduğunu bir daha qeyd etdi. Əsas məqam ondan ibarətdir ki, bu gün Ermənistan və Azərbaycan arasında sərhədin delimitasiya və demarkasiya olunmamış əraziləri 500 kilometrdən çoxdur. İlk olaraq Qazaxın dörd kəndinin alınması nəticəsində 13 kilometrin delimitasiya və demarkasiyasını keçdik. Bu, çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Məhz Prezident İlham Əliyevin təkidi və tələbi ilə 4 kənd Azərbaycana qaytarıldı. Onların biri 1990-cı ildə, 3-ü isə 1992-ci ildə işğal olunmuşdu. Azərbaycana qaytarılan bu kəndlərdə quruculuq işlərinə başlanılacaq. Artıq Sərhəd Qoşunları oradadır. Təhlükəsizlik təmin olunmaqla müəyyən kommunikasiyaların yenidən qurulması, evlərin inşasından sonra sakinlərimizin həmin kəndlərə köçməsi mümkün olacaq. Gələcəkdə də bu istiqamətdə addımlar atılacaq. Anons verildiyi kimi, yanvar ayından başlayaraq delimitasiya məsələsini davam etdirmək üçün Azərbaycan və Ermənistan komissiyalarının növbəti görüşü olmalıdır. Düşünürəm ki, bu istiqamətdə işlər müsbət olacaq.

***-Yanvarın 6-da Ermənistan hərbi birləşmələri Azərbaycan ərazilərini növbəti dəfə atəşə tutdular. Düşmənin yenidən atəşkəsi pozmaqda məqsədi nədir?***

-Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə tutulması imzalanması nəzərdə tutulan sülh müqaviləsinə mane olmaq, status-kvonu saxlamaq deməkdir. Bu gün onlar hər hansı təxribat etdikdə, Azərbaycan adekvat cavab verməyə məcburdur. Bunun nəticəsində isə dünyaya səs salacaqlar. Onların ərazisində Avropanın bir sıra qurumlarının vizual kəşfiyyatçı adından nümayəndələri var. Onlar bu məsələləri istədikləri kimi məruzə edəcəklər. Amma bu da bizi qorxutmur. Məlumdur ki, təxribatı ermənilər törədir. Bunun cavabını aldıqdan sonra bildiklərini etməyə çalışırlar. Bu kimi hallar sülhün əldə olunmasına maneə törədən amillərdir.

***-Dövlət başçısı qeyd edib ki, Ermənistanda gedən silahlanma prosesi Cənubi Qafqaz üçün yeni təhdid amilidir. Buna cavab olaraq hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Ermənistanın sürətlə silahlanması yeni gərginliyə gətirib çıxara bilərmi?***

-Ermənistanın büdcəsində müdafiə və təhlükəsizlik üçün 1,7 milyard dollar nəzərdə tutulub. Bu vəsaitə Fransadan, Hindistandan və digər ölkələrdən pulsuz, kreditlə alınan silahlar aid deyil. Bunları da onun üzərinə gəlsək, həddindən artıq böyük rəqəm alınır. Bu o deməkdir ki, Ermənistan ciddi cəhdlə müharibəyə hazırlaşır. Bunun qarşısı mütləq alınmalıdır. Təbii ki, bu Azərbaycanı qorxutmur. Bizim də 8,4 milyard manatlıq müdafiə və təhlükəsizlik büdcəmiz var. Azərbaycan daxili və xarici siyasətini müstəqil aparır. Onlara da hər an cavab verməyə hazırıq. Ermənilər başa düşməlidir ki, bu silahlanma regionda ciddi konfliktə, müharibəyə gətirib çıxara bilər. Bu, növbəti yanar ocağın yaranmasına səbəb olar. Ermənilər bundan nəticə çıxarmalı, silah-sursatın gətirilməsi məsələsini birdəfəlik dayandırmalıdır. Bunu onların havadarları və digərləri də bilməlidir. Məlumdur ki, Fransa heç bir vaxt gəlib Ermənistan vətəndaşını qoruyan deyil. Ona görə də bu cür silahlanmanın qarşısı alınmalı, Ermənistana təzyiq mexanizmindən istifadə edərək onu bu yoldan daşındırmaq istiqamətində addımlar atılmalıdır.

***-Prezident onu da qeyd etdi ki, Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər yaxşıdır. Ermənistan tərəfi bu mesajdan hansı nəticələr çıxarmalıdır?***

-Məlum olduğu kimi, 10 noyabr Bəyanatında Zəngəzur dəhlizinin açılması istiqamətində müddəa var. Bu, Azərbaycanın əraziləri ilə Naxçıvanı birləşdirən quru sərhədin olmasıdır. Buna mane olan İran tərəfidir. Bir müddət isə Rusiya mane oldu. Hətta digər havadar dövlətlər də buna mane olur. Cənab Prezidentin qeyd etdiyi kimi, mütləq şəkildə Zəngəzur dəhlizi açılmalıdır və açılacaq. Danışıqlar yolu ilə açılsa, mühüm məsələ kimi qeyd oluna bilər. Əks halda bizim hərtərəfli gücümüz və imkanımız var ki, dəhliz açılsın. Beynəlxalq səviyyədə İrana, Ermənistana təzyiq göstərilməlidir. Eyni zamanda, onun bütün havadarlarına təzyiq olunmalıdır ki, bu tək Ermənistanın işi deyil. Bu, beynəlxalq daşımaların yoludur. Burada həm regional dövlətlər, həm də Çin və digər ölkələr maraqlıdır ki, öz yüklərini tez bir zamanda Avropaya çatdıra bilsin. Mütləq şəkildə onlara təzyiq olmalıdır. Ermənistan tərəfi buna mane olmağa çalışır. Özü mane ola bilməyəndə isə müxtəlif dövlətlərdən istifadə etməyə çalışır. Amma onlar bilməlidirlər ki, bu yol açılacaq.

***Anar Kəlbiyev***

# Sabiq nazirlə bağlı 46 milyon manatlıq müəmma

## Oqtay Şirəliyevin vaxtında böyük pullara tikilən bina qısa vaxtda niyə uçub-dağılır?

***Qəbələ rayonunda cəmi 16 il əvvəl istifadəyə verilmiş Müalicə-Diaqnostika Mərkəzinin binası indi baxımsız vəziyyətdə qalıb. Ötən ilin yayından etibarən Mərkəzdə stomotologiya xidmətləri istisna olmaqla bütün tibbi xidmətlər dayandırılaraq, rayonda yeni istifadəyə verilmiş Mərkəzi Xəstəxanaya köçürülüb. Sözügedən xəstəxana 2024-cü il aprelin 9-da istifadəyə verilib, ölkə başçısı açılış mərasimində iştirak edib.***

Qəbələ sakinlərinin "Azpolitika"ya verdiyi məlumata görə, Müalicə-Diaqnostika Mərkəzində bir neçə stomotoloq, diş texniki fəaliyyət göstərir, bina mühafizəsiz qalıb və müxtəlif şəxslər tərəfindən yararsız vəziyyətə salınır. Binaya sərf olunmuş bəzi tikinti materialları oğurlanıb, yağış, külək də öz izlərini buraxır. Belə davam edərsə, tikintisinə milyonlarla manat xərclənmiş Mərkəz uçub-dağılacaq. Halbuki, ondan dövlət ehtiyacları üçün istifadə etmək olar...

Müalicə-Diaqnostika Mərkəzinin tikintisinə 2005-ci ildən start verilib. Ölkə rəhbəri 2008-ci il martın 2-də Qəbələ rayonuna səfəri zamanı tikintinin gedişi ilə tanış olub, tapşırıqlarını verib. Həmin il sentyabrın 20-də isə dövlət rəhbərinin iştirakı ilə Müalicə-Diaqnostika Mərkəzinin təntənəli açılış mərasimi keçirilib. Həmin vaxt bildirilib ki, yüksək standartlara uyğun tikilmiş 6 mərtəbəli mərkəzdə ən müasir avadanlıq quraşdırılıb. Burada poliklinika şöbəsi, təcili yardım stansiyası, 20 çarpayılıq cərrahiyyə, 10 çarpayılıq dializ, 5 çarpayılıq reanimasiya şöbələri, aptek, qəbul otağı, lor, stomatoloji, exokardioloji, rentgen kabinetləri var. Tikintiyə 40 milyon manat, inventar və avadanlığın alınmasına 6 milyon vəsait sərf olunmuşdur.

"Tibb ocağında 200 nəfər işləyəcək. Mərkəzin qarşısında 3 hektar ərazidə park da salınmışdır. Burada musiqili fəvvarə quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb", - məlumatda qeyd olunurdu.



Mərkəzin 46 milyon manata başa gəlmiş binasının istifadəsiz qalması və dağılmaq təhlükəsi təəccüb doğurur. Belə hallarda ayrılan vəsaitin önəmli bir hissəsinin təyinatı üzrə xərclənmədiyinə, bir az da konkretləşdirsək, korrupsiya predmetinə çevrildiyinə dair şübhələr ortaya çıxır.

Xatırladaq ki, sözügedən Müalicə-Diaqnostika Mərkəzinin binası Oqtay Şirəliyev səhiyyə naziri postunu tutduğu illərdə inşa olunub və istifadəyə verilib. Oqtay müəllim həmin postda 2005-2018-ci illərdə çalışıb.

Sabiq nazirin zamanında Azərbaycanda bir çox xəstəxanaların tikintisi və təmiri daim müzakirə mövzusu olub. Yerli KİV bu işlər üçün xərclənən vəsaitlərin bir çox hallarda şişirdilməsindən tutmuş yeyinti predmetinə çevrildiyinə dair saysız-hesabsız materiallar dərc edib. Məsələn, 2013-2016-cı illərdə ölkə mediası yazırdı ki, Bakı şəhərində, M.Ə Rəsulzadə qəsəbəsində yerləşən 6 saylı Birləşmiş Şəhər Xəstəxanasının (BŞX) təmirinə 4 milyon, 830 min manat, Nizami rayon 11 saylı BŞX-nin təmirinə 5 milyon manatdan bir qədər artıq, Yeni Yasamal massivində poliklinika, Təcili Tibbi Yardım (TTY) stansiyasının və Uşaq Poliklinkasının tikintisinə 13 milyon 400 min manat, Biləsuvar rayon Mərkəzi Xəstəxanasının təmirinə isə 4 milyon 476 min 500 manat xərclənib, lakin bu tibb müəssisələrində görülən işlərin keyfiyyəti çox aşağı olub. Hətta sadalanan tibb müəssisələrinin bir çoxunun yenidən təmirə ehtiyacı var yazsaq, şişirtməyə yol vermərik.

Ümumiyyətlə isə məmurlarımız təmir-tikinti işlərinə xüsusi həvəs göstərirlər. Bu heç də onların abadlığa, quruculuğa vurğunluğundan irəli gəlmir. Ekspertlərin də fikrincə, müəyyən vəzifəli şəxslər üçün təmir-tikinti layihələri korrupsiya baxımından xüsusilə cəlbedicidir.

Digər tərəfdən, bu gün belə səhiyyə sektorundakı təmir-tikinti işlərində ciddi maliyyə pozuntularına yol verildiyi hətta Hesablama Palatasının yoxlamaları ilə təsdiqini tapır. Məsələn, ötən il Hesablama Palatası Qəbələ Rayon Mərkəzi Xəstəxanasının tikintisi üzrə Səhiyyə Nazirliyinə ayrılan dövlət investisiyalarının istifadəsində nöqsanlar aşkarlamışdı. Aydın olmuşdu ki, obyektin smeta sənədlərində tikinti-quraşdırma və avadanlıqlar üzrə iş vahidi qiymətinin (1991-ci ilin bazis qiyməti) düzgün tətbiq edilməməsi, layihə smeta sənədlərində "nəzərdə tutulmayan işlər və xərclər üzrə ehtiyat vəsait"in istifadə olunmayan hissəsinin müqavilədə və yerinə yetirilmiş işlərin qəbulu aktında işlərin dəyərinə əlavə edilməsi və bu kimi uyğunsuzluq hallarına yol verilməsi nəticəsində podratçı təşkilatlara 1 milyon 491 min 892,34 manat artıq vəsait ödənilib. Bir sözlə, Şirəliyevin zamanından qalan ziyanlı ənənə Səhiyyə Nazirliyində hələ də qalmaqdadır. Buna isə ancaq təəssüflənmək olar...

*Sənan Mirzə*

# YAP bələdiyyə seçkisi üçün 126 min manat toplayıb




***2025-ci il 29 yanvar tarixində keçiriləcək bələdiyyə seçkilərinə qatılan hakim Yeni Azərbaycan Partiyası (YAP) vahid seçki fondu üzrə maliyyə hesabatını açıqlayıb.***

Hesabat Mərkəzi Seçki Komissiyasına təqdim olunub.

Yeni Azərbaycan Partiyası hesabatda vahid seçki fonduna maliyyə vəsaitinin hansı mənbədən daxil olduğunu və məbləğini qeyd edib.

Hesabata görə, vahid seçki fonduna hələlik 126 min manat daxil olub. Bu vəsait bələdiyyə üzvlüyünə namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun xüsusi vəsaiti kimi sənədləşdirilib.

# Pensiya artımları fevralda ödəniləcək



***Həm minimum pensiya məbləğində, həm də əmək pensiyalarında artımlar nəzərdə tutulur. Azərbaycan Prezidentinin imzaladığı sərəncama əsasən, minimum pensiya məbləği gələn aydan 280 manatdan 320 manata çatdırılacaq. Bu o deməkdir ki, minimum pensiya alanlar artıq gələn aydan artırılmış məbləği alacaqlar. Bu artımlar məhz fevral ayında pensiyaçılara ödəniləcək.***

"Unikal"ın məlumatına görə, bunu Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

O bildirib ki, pensiyaçılar üçün vacib məqamlardan biri də əmək pensiyalarının indeksləşdirilərək artırılmasıdır:

"Belə ki, bu artımlar 1 milyon 100 min vətəndaşımızı əhatə edəcək və indeksləşdirmə üçün əlavə olaraq orta hesabla yarım milyard manat vəsaitin ayrılacağı gözlənilir.

Bununla belə, pensiyaların indeksləşdirilməsi yanvar ayının 1-dən hesablansa da artımlar fevral ayından ödəniləcək. Bunun səbəbləri nədir?

Mövcud qanunvericiliyə əsasən, pensiyalar hər il yanvar ayında əvvəlki ildəki orta aylıq əmək haqqında artım faizinə uyğun olaraq indeksasiya olunaraq artırılır. Hələlik dəqiq artım faizi bəlli olmasa da artımlar məhz bu aydan hesablanır. 2024-cü ilin ilk 10 ayının yekunlarına əsasən, ölkə üzrə orta aylıq əmək haqqı təxminən 8 faiz artıb. Dəqiq rəsmi göstərici isə gələn ayın əvvəllərində elan ediləcək.

2024-cü ildə orta aylıq əmək haqqında artımla bağlı rəsmi statistika fevral ayının ilk 10 günündə bəlli olduğu üçün indeksasiya da məhz o zaman aparılacaq. Pensiya artımları yanvarın 1-dən hesablanır, amma artımlar fevral ayında ikisi birlikdə ödəniləcək. Deməli, pensiyaçılar artımları gələn aydan etibarən alacaqlar. Amma yanvar ayı üçün hesablanmış artım da fevral ayının pensiya məbləğinə əlavə olunacaq.

Qeyd edək ki, indeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa onun pensiya məbləğinə artım hesablanacaq".

# Vəkil məhkəmə zalında həbs edildi

***"Kamandar Nəsibov və partnyorları" vəkil bürosunda işləmiş Babək Rzayevlə bağlı məhkəmə araşdırması sona çatıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən məlumat verir ki, Naxçıvan Ağır Cinayətlər Məhkəməsi hökm çıxarıb. Vəkil müştərilərindən müqavilədənkənar pul alaraq onlara vəzifəli şəxslər vasitəsilə məhkəmə işlərində kömək edəcəyini vəd verməkdə ittiham edilib. B.Rzayev əvvəl Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib, sonradan ev dustaqlığına buraxılıb. Onun vəkillik fəaliyyətinə də xitam verilib.

Məhkəmənin yekun hökmü ilə isə Babək Rzayev 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. O, məhkəmə zalındaca qandallanaraq həbsə göndərilib.




# Baş Prokurorluq iddialara cavab verdi

***Bəzi sosial media səhifələrində Azərbaycan Respublikasının Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Babayev İlkin Əbülfəz oğlunun əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilməsi və digər şəxslərin məsuliyyətdən kənarda qalması barədə məlumatlar yayılıb.***

Bununla bağlı Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, çoxsaylı şəxslərin müraciəti əsasında Baş İdarədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqı aparılmış, Babayev İlkin Əbülfəz oğlunun qabaqcadan əlbir olan bir qrup şəxs halında Muradov Eldar Murad oğlu, Həsənzadə Mobil İsmiəli oğlu, Məmmədov Allahqulu Qudrət oğlu və Ağazadə Asəf Elşad oğlu ilə birgə işə düzəltmə, torpaq sənədlərinin hazırlanması, təhsil sənədlərinin tanıdılması və digər adlarla 32 şəxsdən müxtəlif məbləğlərdə olmaqla, ümumilikdə 700 min manatdan artıq məbləğdə, o cümlədən Şəmşirov Nahid Rəşid oğlu ilə cinayət əlaqəsinə girməklə 7 şəxsdən 240 min manatdan artıq pul vəsaitini dələduzluq yolu ilə ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd edilən əməlləri ilə bağlı İlkin Babayev və digər şəxslərə Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və digər maddələri ilə ittiham elan edilmiş və 27 may 2023-cü il tarixdə cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir. Hazırda məhkəmə baxışı davam etdirilir.

Eyni zamanda Nahid Şəmşirov Cinayət Məcəlləsinin 178.3.2, 310-cu və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, istintaqdan qaçıb gizləndiyinə görə beynəlxalq axtarışa verilmiş və Binəqədi Rayon Məhkəməsinin müvafiq qərarı ilə barəsində qiyabi həbs qətimkan tədbiri seçilmişdir.

Əlavə olaraq qeyd edilir ki, Baş İdarədə Babayev İlkin Əbülfəz oğlu barəsində əvvəllər Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2, 178.2.3, 178.2.4 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, təkrar, öz qulluq mövqeyindən istifadə etməklə və xeyli miqdarda ziyan vurmaqla dələduzluq) və digər maddələri 3 cinayət işinin ibtidai istintaqı aparılmış və hər 3 iş aidiyyəti üzrə məhkəmələrə göndərilməklə, onlardan 2-si üzrə ittiham hökmü çıxarılmış, 1-i üzrə isə bəraətverici əsaslar olmadan icraata xitam verilmişdir.

Habelə, İlkin Babayevin Bakı istintaq təcridxanasında saxlanıldığı müddət ərzində Cinayət Məcəlləsinin 317-2.1-ci (istintaq təcridxanasında saxlanılan şəxs tərəfindən qadağan edilmiş əşyaların gəzdirilməsi, saxlanılması və istifadəsi) maddəsilə cinayət məsuliyyətinə cəlb edilmiş və həmin iş baxılması üçün aidiyyəti üzrə Sabunçu rayon məhkəməsinə göndərilmişdir.

# Cəbrayılda "Mitsubishi" aşdı - Ölən və yaralananlar var

***Cəbrayılda ağır yol-nəqliyyat hadisəsi baş verib.***

"Unikal" xəbər verir ki, hadisə ötən gün Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun Cəbrayıl rayonundan keçən hissəsində qeydə alınıb.

Belə ki, "Mitsubishi" markalı minik avtomobilinin aşması nəticəsində bir nəfər ölüb, 2 nəfər xəsarət alıb.

Yaralanan şəxslər Füzuli Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. İlkin tibbi yardım göstərildikdən sonra onlar Bakı şəhərindəki xəstəxanalardan birinə təxliyə olunublar.

Faktla bağlı araşdırma aparılır.

# Bank kartlarından oğurluqla bağlı şok iddialar

## Günahkar yalnız vətəndaşlardırmı? - Cəmiyyətdə başqa şübhələr də dolaşır...

***Son vaxtlar mediada və sosial şəbəkələrdə, eləcə də ictimaiyyət arasında əsas müzakirə mövzularından biri bank kartlarından oğurluq halları ilə bağlıdır. Belə halların bir çoxu vətəndaşların kibercinayətkarlıq qurbanına çevrilməsi nəticəsində baş verir.***

Ekspertlər bildirirlər ki, bank kartlarından pulların oğurlanmasının bir neçə geniş yayılmış üsulları vardır. Bunlara misal kimi fişinq və vişinqi qeyd etmək olar. Fişinq - müəyyən üsullarla istifadəçinin istifadəçi adı, şifrəsi, kart məlumatları və digər həssas məlumatlarının dələduzlar tərəfindən ələ keçirilməsi və oğurlanmasıdır. Fişinq hücumlar zamanı dələduz bank saytı kimi görünən saxta veb-sayt yaradır. Sonra isə onlar istifadəçiləri müxtəlif şirniləndirmə üsullarından istifadə edərək bu sayta aldadıb aparmağa cəhd edirlər ki, burada onlar gizli istifadəçi məlumatlarını, yəni istifadəçi adı, şifrə, şəxsi hesab məlumatlarını əldə etsinlər. Sonda isə bu məlumatlar fırıldaqçılıq fəaliyyətinin həyata keçirilməsində istifadə edilir.



Vişinq üsulu ilə dələduzluq zamanı isə dələduzlar telefon zəngi ilə bank və ya hüquq-mühafizə orqanları, yaxud da digər qurumun əməkdaşı olduğunu bildirir və şəxsə onun haqqında bəzi məlumatları söyləyir. Məsələn, ad, soyad və s. Belə olduqda da həmin şəxsdə zəng edən dələduza qarşı inam yaranır və onun soruşduğu məxfi məlumatları söyləyir. Dələduz həmin məxfi məlumatları soruşma səbəbini müxtəlif bəhanələrlə izah edir. Məsələn, şəxsə zəng edilərək bildirilir ki, o, müəyyən məbləğdə pul udub və bu pulun ödənilməsi üçün kart məlumatlarını verməlidir və s.

Şəxslərin bank kartlarında olan pulları onların mülkiyyəti hesab olunur. Ona görə də həmin kartlardan pulların oğurlanması qanunvericiliklə mülkiyyətə qəsd sayılır.

Lakin məsələnin başqa tərəfi də var. Son vaxtlar belə fikirlər geniş yayılmağa başlanıb ki, bank kartlarından oğurluq hallarında bank əməkdaşlarının da birbaşa, hətta bəzilərinin fikrincə, bu və ya digər dərəcədə iştirakı var. Söhbət ilk növbədə bank müştərilərinə məxsus fərdi məlumatların başqalarına ötürülməsindən gedir. Həmçinin, bəzi bankların zəruri təhlükəsizlik tədbirləri görmədiyi səbəbindən də vətəndaşların haqsızlıqla üzləşdiyi deyilir. Məsələn, son vaxtlar bank kartından pul çıxarılarkən təhlükəsizlik kodunun gəlməli olduğu halda gəlmədiyi, nəticədə xeyli pul itirdiyi barədə sosial şəbəkələrdə giley-güzarların əməlli-başlı artdığı müşahidə olunur. "Banklar kredit faizlərindən fantastik pullar qazanırlar, ancaq kiberhücumların önlənməsi üçün universal təhlükəsizlik tədbirləri görməyə can çəkirlər" deyən vətəndaşlar arasında banklardakı fərdi bilgilərinin etibarlı şəkildə qorunduğuna dair şübhələr də günbəgün dərinləşir.

Artıq məsələ hökumət dairələrinin də diqqətini çəkib. Bu günlərdə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Taleh Kazımov növbəti bank sahəsi üzrə peşəkar olan vətəndaş cəmiyyəti təmsilçiləri ilə görüşüb. Görüşdə iştirak edən vəkil Əkrəm Həsənov "Gununsesi.info"ya bildirib ki, müzakirələrdə bank kartlarından oğurluq məsələlərinə geniş yer ayrılıb: "Bəli, mən bu məsələni qaldırdım. Həm dedim, onlayn kreditlər verilir, həm də kartda olan vəsaiti çıxarırlar. Ümumi mövqe belə oldu ki, əksər hallarda vətəndaşın öz günahı olur və mən bununla razıyam. Doğrudan da vətəndaşlarımız kart məlumatlarını başqalarına verirlər. Nə bilim, zəng edirlər və s. Bu hallar var, amma eyni zamanda məndə də faktlar var ki, vətəndaşı aldadırlar, amma son anda bundan xəbər tutulur, məlumat verilir, guya kart da bloklanır, di gəl, vəsait də çıxılır. Cavab belə oldu ki, məlumatımız var, məsələ ciddi nəzarətdədir. Mən əsasən bu halların daha çox böyük banklarda olduğunu vurğuladım. Taleh Kazımov onu da etiraf edərək dedi ki, bu belədir, amma məsələ nəzarətdədir. Çünki böyük banklar daha çox əməliyyat həyata keçirir, ona görə də onlarda belə hallar daha çoxdur. O, əsasən dedi ki, bankların günahı burada həm də odur ki, maarifləndirmə işlərini aparmırlar. Müştərilər də öz məlumatlarını kimə gəldi verirlər. Bütövlükdə bu mövqe ilə razı olsam da, orda da dedim, xeyli hal var ki, bankın öz günahıdır. Yəni, bank müştəriyə vəsaitin çıxması ilə bağlı sms də göndərmir. Digər tərəfdən də dedim ki, Mərkəzi Bankın da təlimatında bank əməliyyatı şübhəli hesab etdiyi halda dayandırmalıdır. Müştərilərimdə belə hallar var ki, müəyyən dövr ərzində hesabından pul silinir, amma bank bunu şübhəli əməliyyat kimi görmür".

Onu da deyək ki, son illərdə bank kartlarından oğurluqla bağlı hüquq-mühafizə orqanları çox sayda cinayətkarı müəyyənləşdirib və beləleri həbs olunub. Lakin dolaşan iddialardan belə anlamaq olar ki, məsələ ilk baxışdan göründüyü qədər sadə deyil və Mərkəzi Bank rəhbəri ilə görüşdə də etiraf edildiyi kimi, xüsusilə böyük bankların bəzilərində problem daha dərindir. Hökumətin məsələ barədə məlumatlı olması bu istiqamətdə araşdırmaların tezliklə daha da dərinləşəcəyinə ümid, cəmiyyətdə yaranan suallara, şübhələrə aydınlıq gətiriləcəyinə inam yaradır.

Eyni zamanda, araşdırmalar dərinləşərsə, biz yalnız kibercinayətkarlıq yolu ilə bank kartlarından oğurluğa imza atan dələduzlarla yanaşı, bəzi bankların məsul əməkdaşlarının da gələcəkdə hüquqi məsuliyyətə cəlb olunması hallarının şahidi ola bilərik. Qısası, ölkədə bank sistemində etimadın gücləndirilməsi baxımından ictimaiyyətdə, mediada, sosial şəbəkələrdə öz aktuallığını qoruyan mübhəm məqamlara aydınlıq gətirilməsi arzuediləndir.

***Toğrul Əliyev***

# Keçmiş nazir müavininin yaxın adamına böyük şok...

## Raqif Abbasovun 1 milyon manatlıq korrupsiya əməliyyatının ifşasından kimlər narahatdır?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) sabiq rəisi Raqif Abbasov və eyni idarənin maliyyə-iqtisadiyyat sektorunun müdiri Eldəniz Qulamovun cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.***

Bildirilib ki, cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İş araşdırılması üçün hakim Səbuhi Hüseynovun icraatına verilib.

Cinayət işi üzrə zərərçəkmiş qismində Gənclər və İdman Nazirliyi tanınıb.

Qeyd edək ki, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin sabiq rəisi Raqif Abbasov və eyni idarənin maliyyə-iqtisadiyyat sektorunun müdiri Eldəniz Qulamov 1 milyon manata yaxın dövlət vəsaitinin mənimsənilməsində ittiham edilib.



Cinayət işinin istintaqı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılıb.Onlara qarşı Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə-xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham elan edilib.

R.Abbasov və E.Qulamov həbsdə deyil, hər ikisi haqda məhkəməyə qədər alternativ qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Raqif Abbasov vəzifəsindən ötən ilin iyununda ayrılıb. O, 2007-ci ildən BŞGİBİ-nin rəisi vəzifəsində çalışırdı.Maraqlı burasıdır ki, sabiq rəis vəzifədən ayrıldıqdan qısa müddət sonra KİV-də Abbasova yeni vəzifə veriləcəyinə dair məlumat yayılmışdı. Həmin vaxt deyilirdi ki, o, tezliklə Gənclər və İdman Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" ölkə Prezidentinin Sərəncamı ilə yaradılmış Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinə rəis təyin olunacaq. "Artıq bununla bağlı Gənclər və İdman Nazirliyi rəhbərliyi tərəfindən yeni yaradılmış müvafiq gənclər və idman idarəsinə məlumat verilib" - xəbərdə vurğulanırdı.

Lakin həmin iddia nəinki öz təsdiqini tapmadı, əksinə, Abbasovun təxminən 1 milyon manatlıq korrupsiya əməliyyatına görə cinayət məsuliyyətinə cəlb olunduğu aydınlaşdı. Məhkəmənin sonunda keçmiş rəisin həbs edilməsi belə istisna edilmir.

Bu məsələdən Gənclər və İdman Nazirliyinin bəzi sabiq yüksək vəzifəlilərinin də xüsusi narahatlıq keçirdiyi deyilir. "Belə böyük məbləğdə yeyintini sadəcə keçmiş idarə rəisinin özfəaliyyəti kimi qəbul etmək sadəlövhlük olardı. İstisna deyil ki, Rafiq Abbasov məhkəmədə vaxtilə nazirlikdə mühüm vəzifələrdə çalışanları da ələ verəcək. Onların arasında mərhum Azad Rəhimovun zamanında işləmiş sabiq nazir müavinlərindən birinin olması da mümkündür. Həmin eks nazir müavini keçmiş idarə rəisinin himayədarı kimi tanınırdı. Əgər Abbasov həbs riskinin gerçəkləşmə ehtimalının açılmaz olduğunu görsə, 1 milyon manatlıq yeyintini ilə bağlı müəyyən adlar çəkə bilər" - iddialar belədir. Hələliksə onun "körpüləri tam yandırmaq" istəmədiyi və öz keçmiş himayədarının köməyinə ümid bəslədiyi vurğulanır.

Bəs haqqında danışılan sabiq nazir müavini kimdir? Deyilənə görə, söhbət İsmayıl İsmayılovdan gedir. O, 2006-cı ildən 2021-ci ilədək gənclər və idman nazirinin müavini olub. Bu vəzifəyə təyinat aldıqdan 1 il sonra isə Rafiq Abbasov BŞGİBİ-nin rəisi vəzifəsinə gətirilib. Həmin vaxtadək isə Abbasov öncə Gənclər və İdman Nazirliyində sektor müdiri (2002-2005-ci illər), sonra da Gənclər və İdman Nazirliyinin Mətbuat katibişöbə müdiri (2005-2007-ci illər) işləyib.

İsmayıl İsmayılov 1996-2006-cı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi işlər üzrə prorektoru postunu tutub. Rafiq Abbasov isə həmin dövrdə - 1999-2003-cü illərdə adı çəkilən ali təhsil müəssisəsini bitirib.

Qeyd edək ki, sabiq idarə rəisi məhz keçmiş nazir müavininin vəzifəsini itirməsindən aylar sonra öz postu ilə vidalaşıb.

Onu da deyək ki, sabiq idarə rəisinin keçmiş nazir müavininin yaxın kadrı olmasına dair gəzən söz-söhbətlərə sonuncunun münasibətini öyrənmək mümkün olmayıb.

Yeri gəlmişkən, İsmayıl müəllim istər vəzifədə olarkən, istərsə də vəzifəsini itirdikdən sonra onun barəsində də müxtəlif korrupsiya iddiaları ortaya atılıb. Sabiq nazir müavini bu iddialara hər hansı münasibət bildirməyib. Əvəzində isə o, iki il öncə "Unikal"a açıqlamasında yeni vəzifə gözləntisində olduğunu dilə gətirmişdi. Sitat: "Təklif olarsa, bundan sonra da dövlət qurumlarında çalışmağa və mənə olan etimadı doğrultmağa hazıram. Yəqin ki, məsləhət görülərsə, işlə bağlı təklif də olacaq".

Aradan iki il keçib və İsmayılov hələ də işsizdir. Halbuki onunla eyni vaxtda gənclər və idman nazirinin müavini postundan uzaqlaşdırılan İntiqam Babayevə öncə Nazirlər Kabinetində iş verilmiş, ardınca isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədrinin müvafiq əmri ilə İntiqam Babayev Aparat rəhbəri təyin olunmuşdu. Babayevlə müqayisədə İsmayılova dövlət qurumlarında yeni vəzifə təklifi gəlməməsi maraq doğurur. Bir çoxları bunu onun haqqında vaxtilə ciddi korrupsiya şübhələrinin olduğu ilə əsaslandırırlar.

***Toğrul Əliyev***

# Dollar satışı niyə artıb? - Təhlil



***Ötən il ölkədə ABŞ dollarına tələb artıb. Bunun nədən qaynaqlandığı konkret cavab istəyir. 2017-ci ildən bəri ölkəmizdə "dollar aclığı" aradan qalxmışdı. Bu gün də belə bir hal mövcud deyil. Sadəcə olaraq, Dövlət Neft Fondu (ARDNF) daha çox dollar satıb ki, bu da ümumi həcmi yüksəldib.***

2024-cü ilin yanvar-noyabr ayları ərzində Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən keçirilən 87 valyuta hərracında 6 milyard 603 milyon 870 min məbləğində ABŞ dolları satılıb. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çox deməkdir. ARDNF tərəfindən satılan dollar həcmindən əldə edilən manat kütləsi qabaqcadan nəzərdə tutulan illik transfert çərçivəsində dövlət büdcəsinə köçürülür. Məsələ bundadır ki, ARDNF-in dollar satışından əlavə, AMB-in rəsmi valyuta ehtiyatları da oktyabr və noyabr ayları ərzində 424 milyon dollar + 404 milyon dollar = 828 milyon dollar məbləğində azalıb. İl ərzində niyə bu qədər dollar satışı həyata keçirilib?! Ölkədə ABŞ valyutasına tələb həqiqətən artıbmı? Artıbsa bu, nəylə əlaqədardır?

Hər şey heç də göründüyü kimi deyil. Əvvəla, ölkədə xarici valyutaya tələb bazar tərəfindən müəyyən olunmalıdır. Bunun üçün ilk növbədə dövlət iqtisadiyyatdan və bazardan tam kənarda mövcud olmalı, valyuta tənzimlənməsi "üzən məzənnə" mexanizmi əsasında fəaliyyət göstərməlidir.

2017-ci ildən keçən müddətdə manata inamın azalması üçün heç nə baş verməyib. Bəs AMB niyə ARDNF ilə yanaşı valyuta satışı həyata keçirib və 828 milyon dollar sərf edib? Qurumun açıqlamasında bunun dövlət xərclərinin xarici valyuta ilə olan hissəsinin, yəni müxtəlif vacib layihələrin və tədbirlərin, müdafiə, digər öhdəliklər və strateji əhəmiyyətli məsələlərin icrasına dəstək məqsədilə həyata keçirildiyi bildirilir. Həqiqətən də, valyuta bazarında manatın dəyəri üçün heç bir təhdid mövcud olmadığından, AMB-in 828 milyon dollarlıq intervensiya tədbiri məhz bununla əlaqədar baş verməyib. Əksinə, AMB-in rəsmi valyuta ehtiyatlarını artırması üçün münbit şərait davam edib. Buna rəğmən, qurum oktyabradək ehtiyatını cəmi 183 milyon dollar artırıb.

ARDNF də nə qədər çox dollar satmış olsa belə, dövlət büdcəsinə nəzərdə tutulan transfertdən kənara çıxmayıb. Yəni Neft Fondu dollar satışında limiti keçməyib. Sadəcə olaraq, 2024-cü il ərzində dövlət xərcləri əvvəlki illərdən çox olduğundan, Fond tərəfindən satış tempi bir qədər sürətli xarakter daşıyıb. Qarabağ və Şərqi Zəngəzurun bərpası, COP29 ilə bağlı layihələr, tikinti və sair xərclər, investisiyalar idxalı artırıb. Təkcə, Qarabağ bölgəsinə 44 günlük müharibədən sonra 19 milyard manatdan çox vəsait xərclənib.

Ümumiyyətlə, dövlət xərcləri və investisiyaları artdıqca, idxalın genişlənməsi qaçılmaz xarakter daşıyır. Çünki tək yerli istehsal hesabına hər şeyi etmək mümkün deyil. İstər istehlak bazarında, istərsə də investisiya zamanı istifadə edilən malların əksəriyyəti xaricdən gətirilir. Nəticədə dollara tələbat istər-istəməz artır. Bunu "iqtisadiyyatın genişləndirilməsi tədbirləri" adlandırmaq da mümkündür.

Bir sözlə, ötən il ABŞ dollarına tələbin çoxalması sırf iqtisadi tələblərdən - dövlət xərclərinin artması, iqtisadiyyatın genişlənməsi, investisiya məsrəflərindən qaynaqlanıb. Heç bir halda hansısa riskli məqam ortaya çıxmayıb. Valyuta bazarında sabitlik qorunub saxlanmaqda davam edib. Neft Fondu və AMB-nin dollar satmaları əhalinin şəxsi məqsədlər üçün valyuta almasından irəli gəlməyib. İqtisadiyyatda dollarlaşma prosesi də getmir. Bunu ölkənin bank sektorunda fiziki və hüquqi şəxslərin yerləşdirdiyi depozit həcmlərinin strukturu da sübut edir, bankların kredit portfelində xarici valyuta ilə verilən kredit vəsaitlərinin həcmi də. Dollar satışının artması bu valyutaya marağın və sığortalanmaq istəyinin təzahürü deyil(azvision.az).

***Pərviz Heydərov***

01_27 IYUl-QARA.qxd 1/9/2025 8:14 PM Page 11



# Həkim arvadını öldürən Türkiyə vətəndaşına ağır cəza verildi



***Tanınmış plastik cərrah Türkan Gündüzü qətlə yetirməkdə təqsirləndirilən həyat yoldaşı, Türkiyə vətəndaşı Muhammet Gündüzə hökm oxunub.***

"Unikal"ın məlumatına görə, hökm Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi Fəhmin Hümbətovun sədrliyi ilə keçirilən prosesdə elan edilib.

Hökmə əsasən, Türkiyə vətəndaşı Muhammet Gündüz 17 müddətinə azadlıqdan məhrum edilib. Xatırladaq ki, son prosesdə dövlət ittihamçısı Samir Məmmədov məhkəməyə təqsirləndirilən şəxsin 18 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, ötən il mayın 7-də Novxanı qəsəbəsində 1982-ci il təvəllüdlü Türkan Gündüzün ölməsinə dair Abşeron rayon prokurorluğuna məlumat daxil olub. Aparılmış araşdırmalarla 1967-ci il təvəllüdlü Türkiyə vətəndaşı Muhammet Gündüzün aralarında yaranmış mübahisə zamanı arvadı Türkanə Gündüzə bıçaqla xəsarət yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Muhammet Gündüz şübhəli şəxs qismində tutulub. Ona qarşı Cinayət Məcəlləsinin 120.2. 4-cü (xüsusi amansızlıqla qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

Qətlə yetirilən Türkan Gündüz tanınmış həkim olub. O, ölümünə qədər klinikalardan birində plastik cərrah kimi fəaliyyət göstərib.

***Seymur Əli***

# Yeznəsini öldürən kişi azadlığa buraxıldı



***Bacısının ərini xüsusi amansızlıqla öldürməkdə ittiham edilən 27 yaşlı Əkbər Vəliyev cəzadan azad edilib.***

Sumqayıt Ağır Cinayətlər Məhkəməsi işlə hərtərəfli tanış olduqdan sonra belə qərar qəbul edib. Bu hadisə 2023-cü ilin iyulunda Sumqayıt şəhərində baş verib. Əkbər onunla eyni yaşlı yeznəsi Arif Muxtarovu bir neçə bıçaq zərbəsi ilə öldürüb. İstintaq materiallarında yazır ki, Arif yalvararaq onu uşaqlarına bağışlamasını istəsə də, yeznəsi ona rəhm etməyib.

Əkbər həbs edilsə də, ekspertlər onun cinayət törədərkən anlaqsız vəziyyətdə olduğu barədə rəylər veriblər. Məhkəmə müttəhimi fəaliyyət qabiliyyətsiz elan edib. Qeyd edilən səbəbdən Əkbər məhkəmədə ifadə verməyib. Hakim Nurəddin Hüseynli onun həbs edilən zaman müstəntiqə verdiyi ifadəsini elan edib. O, həmin ifadəsində özünü tam təqsirli bilib. Yeznəsini öldürməyinin səbəbinin bacısını mütəmadi olaraq incitməsi olduğunu deyib: "Əkbər iki il əvvəl bacımla evlənmişdi. Amma bilirdim ki, onu incidir. Buna baxmayaraq, qorxusundan bizə nə isə demirdi. Hadisədən bir qədər əvvəl bacım etiraf edib, amma ailəsinin dağılmaması üçün xahiş edib ki, heç kimə, heç nə deməyək".

Əkbər hadisə günü Arifi çay içmək üçün restoranlardan birinə çağırıb. Cinayəti də restoranın yanında törədib. Təqsirləndirilən şəxs yeznəsinə bir-iki bıçaq vursa da, ölmədiyini görüb. Arif qan içində qaçmağa çalışıb. Fikri qəti olan Əkbər onu yenidən yerə yıxıb, bir neçə dəfə də bıçaqla vurub.

Hakim bütün tərəfləri dinlədikdən sonra ekspert rəylərini və prokurorun təklifini əsaslı hesab edib.

Qərara əsasən, Əkbər anlaqsız vəziyyətdə adam öldürdüyündən cinayət məsuliyyətindən və cəzadan azad edilib. O, hökm qanuni qüvvəyə minənə kimi Respublika Psixiatriya Xəstəxanasına yerləşdiriləcək.

# Yevlax sakini döyüldü

***Yevlax sakini döyülərək çoxsaylı bədən xəsarətləri alıb.***

"Unikal"ın məlumatına görə, hadisə Hacıselli kəndində baş verib. Belə ki, 1963-cü il təvəllüdlü rayon sakini Abbasov Natiq Abbas oğlu naməlum şəraitdə döyülərək çoxsaylı bədən xəsarətləri alıb. Başın çapılmış yaraları ilə yaralı kişi xəstəxanaya çatdırılıb. İlkin tibbi yardım göstərildikdən sonra başqa bölgə klinikasına köçürülüb.

Faktla bağlı araşdırma aparılır.

***Ehtiram Muradov***

# İcra başçılarının sağalmayan mərəzi

## Bəzi rayon rəhbərləri hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyirlər

***Yardımlı rayonunda biznes layihələri həyata keçirmək, bunun üçün rayonda tikinti-quruculuq işləri aparmaq istəyən iş adamları məmur özbaşınalığı, bürokratik əngəllər, süni maneələr, hətta təzyiqlərlə, təhdidlərlə belə üzləşirlər. Bu barədə Yardımlı Xeyriyyə Cəmiyyəti İctimai Birliyinin sədri Mərdan Seyidbəyli məlumat verib.***

Onun sözlərinə görə, rayonda məşğulluq məsələsi ilə bağlı vəziyyət ürəkaçan deyil: "Məhz işsizliyin artığına, dolanışığın çətin olduğuna görə rayonda demoqrafik durum da acınacaqlıdır, kəndlər günü-gündən boşalır. Biz Yardımlı Xeyriyyə Cəmiyyəti olaraq xaricdə yaşayan həmyerlilərimizi rayonumuza investisiya yatırmağa, biznes qurmağa, yeni iş yerləri açmağa təşviq edirik. Təəssüflər olsun ki, rayondakı məmurlar, xüsusilə icra hakimiyyəti nümayəndələri bunun əksini edirlər, öz həmyerlilərinə gün ağlamağa çalışan iş adamlarına süni əngəllər yaradırlar. Rayonda iş yerlərinin açılmasına şərait yaratmaqdansa, kəndlərin boşalmasının qarşısının alınması üçün özləri çalışmaqdansa, iş görmək istəyənə də mane olurlar".



M.Seyidbəyli fikirlərini konkret faktlarla da əsaslandırıb: "Savalan Eyvazov adlı gənc bir həmyerlimiz, iş adamı Qazaxıstandan gəlib, çox həvəslə rayonda gözəl işlər görmək istəyir. Həm rayon mərkəzində, həm də Vərgədüz kəndində gözəl biznes layihələri icra etmək istəyir. Təəssüflər olsun ki, rayon icra hakimiyyətindən iş adamına imkan vermirlər. Sərvər adlı bir arxitektor ondan, rayon icra hakimiyyətinin başçısı Ayaz Əskərovun adından 3500 manat pul tələb edib. Bildirib ki, həmin məbləği versə, icra başçısı göz yumacaq və iş adamı da tikintini davam etdirəcək. İş adamı da soruşur ki, nəyə göz yumacaq, axı mənim sənədlərim qaydasındadır".

Qeyd edək ki, buna bənzər şikayətlər bir neçə il əvvələdək geniş yayılmışdı: icra başçılarının müxtəlif sahibkarlar tərəfindən irəli sürülən biznes, yaxud xeyriyyəçilik təşəbbüslərini boğmağa çalışması adi hal idi, belə təşəbbüsləri reallaşdırmaq üçün rayon rəhbərlərinin, obrazlı desək, könlünü xoş tutmaq tələb edilirdi. 2019-cu ildən etibarən ard-arda bir neçə icra başçısının həbsi digər "kiçik padşahların" özbaşınalıqlarını xeyli səngitdi. Lakin belə görünür ki, hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə üstünlük verən icra başçıları var. Onlar rəhbərlik etdikləri rayonların əhalisinin sosial-iqtisadi rifahının yüksəldilməsi istiqamətində təşəbbüslərə özlərinin dar maraqları çərçivəsindən yanaşırlar.

Vurğulamaq yerinə düşər ki, ölkə başçısı dəfələrlə öz çıxışlarında rayon rəhbərlərinə ciddi tövsiyələr verib, sərt xəbərdarlıqlar edib. Məsələn, Prezident həmin çıxışlarından birində bildirib ki, xoşagəlməz hallara yol verilməməlidir, vətəndaşlara maksimum diqqət göstərilməlidir. "Rayon icra hakimiyyətlərinin nümayəndələri kabinetdə oturub kağızlara baxmaq yox, bütün rayonlarda vətəndaşlarla görüşməlidirlər. Mənim göstərişimlə son vaxtlar bu proses bir qədər geniş vüsət alıb, amma lazımi səviyyədə deyil. Mənə verilən məlumata görə, bəzi hallarda formal xarakter daşıyır, bəzi hallarda vətəndaşları narahat edən problemlərə reaksiya verilmir. Ona görə biz çox diqqətli olmalıyıq".

Başqa bir çıxışında isə dövlət rəhbəri vurğulayıb ki, icra başçıları qəsəbələrdə, kəndlərdə olmalıdırlar, vətəndaşların problemlərini eşitməlidirlər, onlara biganə qalmamalıdırlar, onlara şərait yaratmalıdırlar, onlara dəstək olmalıdırlar, kömək göstərməlidirlər. Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaq.

Prezident açıq şəkildə bəyan edib ki, yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidirlər: "Yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlara xidmət edirlər.Bütün dövlət məmurları - Prezidentdən başlayaraq lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir. Yerli icra orqanları diqqətli olmalıdırlar, problemləri həll etməlidirlər".

Ölkə başçısı vəzifələrindən sui-istifadə edən, şəxsi maraqlarını güdən rayonların rəhbərlərinin indiyədək olduğu kimi bundan sonra da sərt şəkildə cəzalandırılacağını da dəfələrlə bəyan edib.

Ancaq belə görünür ki, bir sıra rayonların rəhbərləri bu xəbərdarlıqlardan lazımi nəticə çıxarmaq iqtidarında deyillər, hələ də tutduqları postu vətəndaşa deyil, öz ciblərinə xidmət vasitəsi olaraq görürlər. Belə olan təqdirdə qarşıdakı dönəmlərdə yeni məmur həbsləri baş versə, gərək kimsə təəccüblənməsin. Çünki məmur özbaşınalığı, məmur rüşvətxorluğu, məmur korrupsiyası davam etdiyi müddətcə məmur həbsləri də qaçılmaz zərurət olaraq qalacaq.

***Toğrul Əliyev***

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ və Şərqi Zəngəzurda münbit sahibkarlıq mühiti yaradılıb



***İşğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi dövlətin prioritet istiqamətlərindən biridir. Bu ərazilərdə sahibkarlığın inkişafı istiqamətində dövlətin atdığı addımlar, işğaldan azad olunmuş ərazilərdə rezident statusu alan sahibkarlara şamil olunan vergi güzəştləri və Vergi Məcəlləsinə edilən dəyişikliklər iqtisadi canlanmanı şərtləndirən əsas amillərdəndir. Dövlət bunun üçün işğaldan azad olunmuş ərazilərdə sahibkarlığa öz maddi dəstəyini də əsirgəmir. Belə ki, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən 10 sahibkarlıq subyektinin layihələri 23,8 milyon manat güzəştli kreditlərlə dəstəklənib.***

### Şərqi Zəngəzur iqtisadi rayonunda 5 iri sahibkarlıq subyekti qeydə alınıb

2024-cü ilin 1 oktyabr tarixinə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 5 005 mikro, kiçik, orta və iri sahibkarlıq subyekti, 93 386 fərdi sahibkar fəaliyyət göstərib. Bu barədə Dövlət Statistika Komitəsindən "Unikal" qəzetinə bildirilib. Məlumata görə, mikro sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonu üzrə 3 875, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 851 olub. Bu da ölkə üzrə ümumi sahibkarlıq subyektlərinin müvafiq olaraq 2,2%-i və 0,5%-i deməkdir. Kiçik sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonunda 188 (ümumi saya görə, 1,6%), Şərqi Zəngəzur iqtisadi rayonunda 52 (ümumi saya görə, 0,4%) təşkil edib. Orta sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonunda 6 (ümumi saya görə, 2,1%), Şərqi Zəngəzur iqtisadi rayonunda isə 22 (ümumi saya görə, 0,6%) olub. Ötən ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda 6 (ümumi saya görə, 0,7%), Şərqi Zəngəzur iqtisadi rayonunda 5 (ümumi saya görə, 0,6%) iri sahibkarlıq subyekti qeydə alınıb. 1 oktyabr tarixinə Qarabağ iqtisadi rayonunda 87 510 (ümumi saya görə, 6,4%), Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5 876 (ümumi saya görə, 0,4%) fərdi sahibkar fəaliyyət göstərib.

### İşğaldan azad olunmuş ərazilərdə 33 milyon manat dəyərində sənaye məhsulu istehsal edilib

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-mart aylarında işğaldan azad edilmiş rayonlarda 33 milyon manat dəyərində sənaye məhsulu istehsal edilib. Bu göstəricinin həcmi ötən il 69.2% və ya 13.5 milyon manat artıb. Belə ki, azad edilmiş ərazilərdə 19 milyon 514 min manat dəyərində sənaye məhsulu istehsal edilib. Qeyd edək ki, hesabat dövründə ən çox sənaye məhsulu Ağdam ( 11 456) rayonunda istehsal edilib.

### Qarabağ və Şərqi Zəngəzurda 1532 yeni iş yeri yaradılıb

2024-cü ilin yanvar-sentyabr ayları ərzində işğaldan azad edilmiş rayonlarda 1532 yeni iş yeri yaradılıb. Bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 55% artıb. Belə ki, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində işğaldan azad edilmiş rayonlarda 989 yeni iş yerləri yaradılmışdı.

Qeyd edək ki, 2024-cü ilin yanvar-sentyabr ayları ərzində ən çox yeni iş yeri Laçın və Şuşada yaradılıb. Belə ki, hesabat dövründə Laçında 409, Şuşada isə 324 yeni iş yerləri yaradılıb.

Xatırladaq ki, hesabat dövründə azad edilmiş rayonlarda 246 yeni müəssisə və təşkilat, 2779 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib. Ötən il yaradılmış müəssisə və təşkilatların sayı 2.4 dəfə, fərdi sahibkarların sayı isə 55.9% artıb.

Bu il Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və "İnkişaf Korporasiyası" QSC-nin tərəfdaşlığı nəticəsində şəhid ailələri, müharibə iştirakçıları və onların ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin olunmasına dəstək göstərilməsi məqsədilə "Qarabağ KOB-ları 2024" layihəsinə başlanılıb. Layihə çərçivəsində Bakı, Gəncə, Bərdə, Goranboy, Zabux, Ağalı və Laçın rayonundan olan ümumilikdə 70 şəxsə "Maliyyənin idarə olunması", "Biznes planın hazırlanması", "Marketinq", "Sosial Media Marketinq", "İnsan resurslarının idarə olunması" və "Satış" üzrə təlimlər veriləcək, onların bilik və bacarıqları artırılacaq və nəticədə 70 KOB yaradılacaq. KOB-ların istehsal etdikləri məhsul və xidmətləri satışa çıxara biləcəkləri birja platforması qurulacaq və il ərzində SMM kommunikasiyası təşkil ediləcək. Təlimləri uğurla başa vuran iştirakçıların Dövlət Məşğulluq Agentliyi tərəfindən seçdikləri müvafiq istiqamət üzrə avadanlıqlarla təmin olunması nəzərdə tutulub.

Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonunun tərkibinə daxil olan işğaldan azad edilmiş ərazilərindəki (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi Emin Hüseynov "İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyi" mövzusunda keçirilən elmi-praktik konfransda deyib: "Qarabağ iqtisadi rayonunda 2030-cu ilədək təqribən 150 min iş yerinin açılacağı gözlənilir. Ağdam Sənaye Parkında iş yerlərinin gözlənilən sayı 5 min, kənd təsərrüfatı sektorunda 15-17 min, dağ-mədən sənayesində 1,5-2 min, turizm sahəsində 1,5-2 min, KOS sektorunda isə 10-11,5 mindir".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## İtaliya-Azərbaycan Universiteti üçün bina tikilir

***Bu barədə ADA Universitetindən məlumat verilib. Ali təhsil müəssisəsindən bildirilib ki, İtaliya-Azərbaycan Universiteti Əhməd Bəy Ağaoğlu küçəsində, ADA Universitetinin əsas kampusunun yaxınlığında yerləşəcək.***

Bildirilib ki, qeyd edilən ərazidə artıq İtaliya-Azərbaycan Universitetinin tədris binasının tikintisinə başlanılıb.

Xatırladaq ki, İtaliya-Azərbaycan Universitetinin təməli 2022-ci ildə qoyulub.

Universitet Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliya Respublikasına dövlət səfəri zamanı əldə olunub. İtaliya-Azərbaycan Universiteti ADA Universitetinin bazasında fəaliyyət göstərəcək.

İtaliya-Azərbaycan Universitetinin təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub. Bu xüsusda, keçən il ADA Universiteti ilə İtaliyanın adıçəkilən universitetləri arasında İtaliya-Azərbaycan Universitetinin yaradılması və bu istiqamətdə akademik əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

## Məktəbdə valideynlər arasında baş verən insidentlə bağlı ekspertiza aparılır

***Bakıda orta məktəbdə valideynlər arasında baş verən insidentlə bağlı ekspertiza aparılır.***



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, dekabrın 18-də Yasamal rayonunda yerləşən 158 saylı orta məktəbin həyətində valideynlər arasında baş verən insidentlə əlaqədar mübahisə tərəfləri şikayət ərizələri ilə ərazi üzrə Polis Şöbəsinə müraciət ediblər. Onların izahatları alınıb, araşdırma zamanı hadisə yerinə baxış keçirilib və protokol tərtib edilərək materiala əlavə edilib. İnsidentin hərtərəfli araşdırılması, tərəflərin hadisə zamanı aldıqları xəsarətlərin dərəcəsinin müəyyən edilməsi məqsədi ilə hər iki şəxs ekspertizaya göndərilib.

Polis İdarəsində prosessual araşdırmalar davam etdirilir. Araşdırmanın nəticəsindən asılı olaraq hərəkətə hüquqi qiymət veriləcək.

Qeyd edək ki, dekabrın 18-də Yasamal rayonu ərazisində yerləşən məktəblərin birində valideynlər arasında incident baş verməsi barədə sosial şəbəkədə videogörüntü yayılıb.

01_27 IYUI-QARA.qxd 1/9/2025 9:12 PM Page 13



# "Təhminəni yüngül həyat tərzi keçirdiyi üçün öldürüb"

## 3 dəfə ərə gedən bacısını qətlə yetirən Təbriz Qasımovun məhkəməsi



***Binəqədi rayonunda bacısını qətlə yetirməkdə ittiham olunan Təbriz Qasımovun məhkəməsinin növbəti baxış iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə ilkin olaraq zərərçəkmiş şəxsin hüquqi varisi Xanım Məmmədovaya hüquqları izah olunub. Sonra hakim təqsirləndirilən şəxsə sərbəst ifadə verməyi təklif edib. Ancaq Təbriz Qasımov ifadə verməkdən imtina edib.

Şahid qismində Bəhmən Qasımovun anket məlumatları dəqiqləşdirilib, o ifadə verməkdən imtina edib. Sonra hakim şahidin ibtidai istintaqa verdiyi ifadəsini elan edib. Məlum olub ki, qətlə yetirilən Təhminə Qasımova 2 dəfə ərə gedib və həmin evliliklərdən 2 övladı olub. Ancaq onu tapıb gətirdik bizimlə birgə yaşasın. Bacım mağazada işə düzəldi və hər axşam saat 11-də işdən çıxıb evə gəlirdi, hiss edirdik ki, yüngül həyat tərzi keçirir. Hadisə olan gündə Təhminə işdən çıxıb müdirinin avtomobili ilə evə gəlib. Yəni mən orda ola-ola mənimlə evə getmək istəmədi. Evə gəlib qardaşım Təbrizə dedim ki, Təhminə mənim sözümə qulaq asmır. Təbriz Təhlükənin yatdığı otağa daxil olaraq bacımı boğaraq öldürüb. Sonra Təbriz könüllü olaraq yaxınlıqda olan polis bölməsinə getdi. Bildirim ki, Təbriz Təhminəni yüngül həyat tərzi keçirtdiyi üçün öldürüb. Dəfələrlə xəbərdarlıq eləmişdi, hətta ondan imtina da etmişdir.

Məhkəmə prosesi fevral ayının 4-nə kimi təxirə salınıb.

Xatırladaq ki, hadisə ötən il iyulun 1-də Bakının Binəqədi rayonu ərazisində qeydə alınıb. Araşdırmalarla 1997-ci il təvəllüdlü Təbriz Qasımovun rayonun Rəsulzadə qəsəbəsi ərazisində şəxsi münasibətlər zəminində bacısı Təhminə Qasımovanı boğaraq qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Qətlə yetirilən 20 yaşlı Təhminə Qasımova məişət əşyaları satılan mağazada satıcı vəzifəsində çalışıb.

Onu gecə saat 2 radələrində qardaşı işdən çıxan zaman qarşılayıb və birlikdə evə gediblər. Hadisə səhərə yaxın qeydə alınıb. Hadisədən sonra Təbriz Qasımov könüllü olaraq polisə təslim olub.

İlkin istintaq hərəkətləri zamanı məlum olub ki, Təbriz anasını da ölümlə təhdid edib.

***Seymur Əli***

# "Baku Electronics" keyfiyyətsiz malın qaytarılmasını təmin etmədi

***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti İnzibati Xətalar Məcəlləsinin satılmış malların dəyişdirilməsi və ya geri qaytarılması qaydalarının pozulması barədə maddəsinə uyğun olaraq "Baku Elektronics" MMC barəsində protokol tərtib edib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Xidmətindən məlumat verilib.

Bildirilib ki, şirkətə qarşı tərtib edilən inzibati xəta protokolunun mahiyyəti satılmış keyfiyyətsiz malın (müqavilə şərtlərinə uyğun olmayan mal) qaytarılmaması ilə bağlı olub.

# Sosial şəbəkədə ucuz telefon satmaq adı ilə dələduzluq edənlər saxlanılıb

***Sosial şəbəkədə vətəndaşlara ucuz mobil telefon satmaq adı ilə dələduzluq edən şəxslər tutulub.***

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupundan "Unikal"a verilən məlumata görə, Naftalan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə sosial şəbəkələrdə dələduzluq edən 30 yaşlı Zülfiqar Hüseynov və 27 yaşlı Nurlan Əliyev saxlanılıb.

Həmin şəxslər müxtəlif sosial şəbəkələrdə tanış olduğu şəxslərə ucuz mobil telefon təklif edərək 1340 manat pulu dələduzluq yolu ilə ələ keçiriblər.

Faktlarla bağlı cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

Z. Hüseynov və N. Əliyevin digər analoji cinayətlərdə iştirakı istisna edilmir. Əgər bu şəxslərin əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə polis orqanlarına məlumat verə bilərlər.

# İndiyədək yollarda neçə elektron tərəzi yerləşdirilib? - Açıqlama

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ümumi istifadədə olan avtomobil yollarının qorunması üçün Hərəkətdə olan iriqabaritli və (və ya) ağırçəkili nəqliyyat vasitələrinin çəki və kütlə parametrlərini ölçən texniki vasitələrin (elektron tərəzilərin və çiplərin) ümumi istifadədə olan avtomobil yollarında quraşdırılması işləri davam etdirilir.***



Bu barədə "Unikal"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilir ki, avtomobil yollarında yeni texnologiyaya əsaslanan elektron tərəzilərin quraşdırılması prosesi 2 mərhələ üzrə aparılır. 1-ci mərhələdə 11 yerdə 17 tərəzi, 2-ci mərhələdə 20 yerdə 34 olmaqla, ümumilikdə 31 yerdə 51 tərəzinin quraşdırılması planlaşdırılıb.

Artıq 1-ci mərhələ üzrə 4 yerdə 6 tərəzinin quraşdırılması işləri tamamlanıb, 7 yerdə 11 tərəzinin qısa müddət ərzində istismara verilməsi planlaşdırılır:

M-1 Bakı-Quba-Rusiya ilə dövlət sərhədi avtomobil yolunun 44,6-cı kilometrində sağ tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb, məntəqə istismara verilib.

M-1 Bakı-Quba-Rusiya ilə dövlət sərhədi avtomobil yolunun 65,1-ci kilometrində sol tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb, məntəqə istismara verilib.

M-1 Bakı-Quba-Rusiya ilə dövlət sərhədi avtomobil yolunun 129-cu kilometrində sağ və sol tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb, məntəqə istismara verilib.

M-2 Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 47,9-cu kilometrində sağ və sol tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb, məntəqə istismara verilib.

M-3 Ələt-Astara-İran ilə dövlət sərhədi avtomobil yolunun 11,3-cü kilometrində sağ və sol tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb. Yanvar ayının sonuna qədər məntəqənin istismara verilməsi planlaşdırılır.

M-3 Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 244,2-ci kilometrində sol tərəfdə texniki vasitələrin quraşdırılması işləri davam etdirilir. Yanvar ayının sonuna qədər məntəqənin istismara verilməsi planlaşdırılır.

M-4 Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 55,3-cü kilometrində sağ və sol tərəfdə texniki vasitələrin quraşdırılması işləri davam etdirilir.

M-4 Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 264-cü kilometrində sol tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb. Yanvar ayının sonuna qədər məntəqənin istismara verilməsi planlaşdırılır.

M-5 Yevlax-Zaqatala-Gürcüstan avtomobil yolunun 44,9-cu kilometrində sağ tərəfdə texniki vasitələrin quraşdırılması tamamlanıb. Yanvar ayının sonuna qədər məntəqənin istismara verilməsi planlaşdırılır.

M-6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan avtomobil yolunun 91,6-cı kilometrində sağ və sol tərəfdə texniki vasitələr quraşdırılması işləri davam etdirilir. Yanvar ayının sonuna qədər məntəqənin istismara verilməsi planlaşdırılır.

Əhmədbəyli-Füzuli-Şuşa (Zəfər yolu) avtomobil yolunun 21,4-cü kilometrində sağ və sol tərəfdə texniki vasitələr quraşdırılması işləri davam etdirilir. Yanvar ayının sonuna qədər məntəqənin istismara verilməsi planlaşdırılır.

2-ci mərhələdə 20 yerdə 34 tərəzinin quraşdırılması nəzərdə tutulub. Layihənin tam olaraq 2026-cı ilin sonlarında yekunlaşdırılması planlaşdırılır. Artıq 2-ci mərhələ üzrə işlərin başlanılması üzrə hazırlıq işləri aparılır və 1 ərazidə elektron tərəzi məntəqəsinin quraşdırılmasına start verilib:

M-2 Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 451,2-cu kilometrində sağ və sol tərəfdə texniki vasitələr quraşdırılması üçün ərazidə təmir işlərinə başlanılıb.

Qeyd edək ki, məlumatların vahid mərkəzdə toplanılması üçün İdarəetmə Mərkəzi (Monitorinq mərkəzi) qurulub.

Bundan başqa iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələri tərəfindən törədilən inzibati xəta istismara verilmiş elektron tərəzilərin vasitəsi ilə aşkar edilərək elektron qərarın çıxarılmasının təmin olunması üçün Daxili İşlər Nazirliyinin elektron məlumat bazasına məlumatların ötürülməsinin təmin edilməsi istiqamətində də müvafiq işlər tamamlanıb.

# Şagird məktəb yoldaşını xəstəxanalıq etdi

***Şabranda şagirdlər arasında dava düşüb.***

"Qafqazinfo"nun məlumatına görə, məsələ ilə bağlı Quba-Xaçmaz Regional Təhsil İdarəsindən "Azərbaycan müəllimi"nə bildirilib ki, hadisə yanvarın 8-də səhər saatlarında qeydə alınıb.



Şabran şəhəri Tofiq Abbasov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbinin 10-cu sinif şagirdi məktəbdənkənar ərazidə 11-ci sinif şagirdinə qarşı aralarında yaranmış mübahisə zamanı xəsarət yetirib.

"Xəsarət almış şagird tibb müəssisəsinə yerləşdirilib, hazırda müalicəsi davam etdirilir. Məktəblinin fiziki və psixoloji durumu məktəb rəhbərliyi və idarə tərəfindən izlənilir. Qeyd olunanlarla yanaşı, stresin idarə olunması, sağlam psixoloji mühitin bərpasını təmin etmək üçün məktəb rəhbərliyinə şagirdlər və pedaqoji heyətlə maarifləndirici söhbətlərin aparılması tapşırılıb.

Hadisə ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır", - deyə Quba-Xaçmaz Regional Təhsil İdarəsindən bildirilib.

# Səfərbərlik Xidmətinin 249 əməkdaşı cəzalandırılıb




***Ötən il Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 249 əməkdaşı məsuliyyətə cəlb edilib.***

"Unikal" xəbər verir ki, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamının, korrupsiyaya şərait yaradan amillərin aradan qaldırılması ilə bağlı tələb və tapşırıqlarının icrasını təmin etmək məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 2023-cü ilin may ayından etibarən korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində kompleks tədbirlər, o cümlədən normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində müvafiq işlər davam etdirilir.

Belə ki, qanunvericiliyin tələblərini pozmuş vəzifəli şəxslər barəsində xidməti yoxlamalar aparılaraq 2023-cü ildə 78, ötən ildə 249 əməkdaş barəsində intizam tənbehi və təşkilati-ştat tədbirləri görülmüş, o cümlədən 13 əməkdaş mənfi motivlə ehtiyata buraxılmış və əmək müqaviləsinə xitam verilmişdir. 2023-cü ildə 15 fakt üzrə 22, 2024-cü ildə isə 51 fakt üzrə 95 nəfər barəsində toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

"Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 06.09.2023-cü il tarixli 2317 nömrəli Fərmanının icrası ilə bağlı müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı barəsində 4 yararlılıq kateqoriyası üzrə qərar qəbul edilmiş vətəndaşların yekun tibbi müayinəsi 01.07.2024-cü il tarixdən etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçirilir. Həmin prosesdə iştirak edən aidiyyəti qurumlar arasında məlumat mübadiləsinin elektronlaşdırılması və optimallaşdırılması korrupsiya hallarının qarşısının alınmasında, obyektivliyin təmin edilməsində və şəffaflığın artırılmasında müsbət nəticələr verməkdədir.

Bununla yanaşı ölkə başçısının 29.12.2024-cü il tarixli Fərmanı ilə vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılmasını tənzimləyən qanunvericilik aktlarında, eləcə də Cinayət, İnzibati Xətalar və Miqrasiya Məcəllələrində dəyişikliklər olunub, bu da xidməti fəaliyyətdə şəffaflığın və vətəndaş məmnunluğunun təmin edilməsinə, eləcə də hərbi xidmətdən boyun qaçırma hallarının qarşısının alınmasına xidmət edir.

Xidmətin strukturunda korrupsiya hüquq pozuntusu və digər qanunsuz tələblə üzləşən vətəndaşların "9100 Çağrı Mərkəzi"nə və ya info@seferberlik.gov.az elektron ünvanına müraciət etməsi xahiş olunur. Xidməti fəaliyyətdə şəffaflığın və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə bu kimi tədbirlər davamlı olaraq həyata keçiriləcək.

# Vətənə bağlı qəhrəman...

***Birinci Qarabağ müharibəsində Vətən, torpaq naminə can qoyub şəhidlik zirvəsinə ucalan Elşad Saday oğlu Əhədov Masallının Təzə Alvadı kəndində boya-başa çatıb. Bu dünyada yaşamağı cəmi 25 il çəkdi. Qaldı ki, elə bir qəhrəmanlıq göstərdi ki, bununla ölməzliyə qovuşdu Elşad. İndi onun şərəfli ömür yolu örnək olaraq dillərdən düşmür. Masallı camaatı hər yerdə, hər dəfə öz qəhrəman oğlunun adını böyük qürurla, iftixarla çəkir.***

Canında, qanında Vətən sevgisi olan Elşad 1982-ci ildə doğma kənd məktəbində yeddinci sinfi bitirib C. Naxçıvanski adına Hərbi liseyə daxil olub. Burada təhsil aldığı illərdə vətənpərvərliyi, yüksək nizam-intizamı, seçdiyi peşəyə sonsuz sədaqəti ona yalnız hörmət qazandırıb. Liseydən sonra hərbiçi sənətini daha mükəmməl öyrənmək üçün Ukrayna respublikasına gedib və Ali Komandirlər Məktəbində oxuyub.1989-cu ildə baş leytenant rütbəsi ilə Volqoqrad vilayətindəki hərbi hissələrdən birinə rota komandiri göndərilib. Erməni dığalarının Qarabağımıza təcavüzü zamanı Vətənin şərəfini qorumaq istəyi gənc zabit bir müddətdən sonra doğma Azərbaycana gətirib. Elşad əvvəlcə Bakının Güzdək qəsəbəsində, sonra isə Lənkəran rayonunda rota komandiri



kimi fəaliyyət göstərib.

Qaldı ki, Qarabağda tez-tez yağ tərəfindən baş verən qanlı hadisələr Elşadı çox narahat edib. Vətənin belə bir ağır günündə o, öz yerini döyüşən cəbhə bölgəsində görüb. Gənc zabit ilk döyüşə Füzuli rayonu ərazisindən başlayıb. Əlində silah daha sonra Nərgiz təpə, Aşağı Veysəlli və Şiş qayda düşmənə layiqli cavab verib. Beyləqanın müdafiəsində isə Elşad sözün əsl mənasında tarix yazıb. Onun minaladığı sahəyə 8 düşmən tankı və onlarla erməni yaraqlısı düşərək məhv olub. Göstərdiyi hünər zabitləri, əsgərləri heyran qoyub.

Elşad Əhədov öz rotası ilə növbəti döyüş əməliyyatına 11 dekabr 1993-cü ildə Ağdaş yüksəkliyində girib. Sayca iki dəfə çox olan erməni quldurları hücumun qarşısını almaq üçün güclü sədd yaradıblar. Qeyri-bərabər döyüşdə o, ağır yaralanıb. Həkimlərin cidd-cəhdinə baxmayaraq, komandirin həyatını xilas etmək mümkün olmayıb. Həmin günü onun Vətən eşqli ürəyi əbədi dayanıb. Bununla əsl qəhrəman olduğunu torpaq uğrunda axıtdığı qanı ilə möhürləyib.

Sinəsini Vətəni üçün sipər edən Elşad Saday oğlu Əhədov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 1993-cü il tarixli fərmanı ilə "Azərbaycan Bayrağı" ordeninə və 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Doğma Alvadı kəndində torpağa tapşırılan qəhrəmanın adına rayonda orta məktəb, parkı vardır. Bizə yadigar qoyduğu iki övladı da ataların adını həmişə uca tuturlar.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

## "Avropa Qapıları" barədə protokol tərtib edildi




***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna əsasən "Avropa Qapıları" MMC barədə inzibati xəta protokolu tərtib edib.***

"Unikal" bu barədə Dövlət Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, şirkətə qarşı tədbir görülməsi alınan məhsulda istehsal qüsurunun olmasına baxmayaraq, onun dəyişdirilmsindən və yaxud qaytarılmasından imtina edilməsidir.

## Avtobus marşrutlarına onlayn bilet satışı 4 dəfə artıb

***2024-cü ildə Azərbaycanda şəhərlərarası və rayonlararası müntəzəm avtobus marşrutlarına onlayn bilet satışını təmin edən "biletim.az" portalı üzərindən 455 min 640 ədəd bilet satılıb.***

"Unikal" bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) istinadən xəbər verir. Bu, 2023-cü illə müqayisədə 4 dəfə çoxdur.

"Portal vaxta qənaət, müştəri məmnuniyyətinin təmin edilməsi, ölkədə nağdsız ödəniş dövriyyəsinin artırılması baxımından bir sıra üstünlüklərə malikdir. Bilet əldə etmək üçün sərnişinlər "biletim.az" saytına daxil olmalı və qeydiyyatdan keçməlidirlər", - məlumatda deyilir.

## Naxçıvanda hərbi sursat aşkarlandı

***Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə polis əməkdaşları tərəfindən Naxçıvan şəhəri, Tumbul kəndi ərazisində hərbi sursatın aşkar edilməsi barədə məlumat daxil olub.***

"Unikal" xəbər verir ki, məlumatla əlaqədar dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin pirotexnikləri hadisə yerinə cəlb edilib.

Polis əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatın döyüş tətbiqinə yararlı 1 ədəd F-1 əl qumbarası və 1 ədəd UZRQM partladıcısı olduğu müəyyən edilib.

Sursat pirotexniklər tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb.

Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.

## İtkin düşən 11 nəfər tapıldı

***Yanvarın 8-də polis əməkdaşlarının keçirdikləri tədbirlərlə ailə üzvlərini məlumatlandırmadan yaşadığı ünvanı tərk etdiyinə görə itkin düşmüş kimi axtarışı aparılan 11 nəfər tapılaraq aidiyyəti üzrə təhvil verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

01_27 IYUI-QARA.qxd 1/9/2025 8:15 PM Page 15





# Tramp Putinə güzəştə getməyəcək

***ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp Ukrayna münaqişəsinin həlli məsələsində Rusiya lideri Vladimir Putinə güzəştə getməyə hazırlaşmır.***

"Unikal" xəbər verir ki, bu barədə Tramp administrasiyasının Ukrayna üzrə xüsusi nümayəndəsi Keyt Kelloq "Fox News"a müsahibəsində bildirib.

Kelloq Trampın məqsədinin Ukraynanın suverenliyini qorumaq olduğunu vurğulayıb. O qeyd edib ki, ABŞ prezidenti münaqişənin ədalətli və dürüst həllini prioritet hesab etməklə yanaşı, nə Putinə, nə də Rusiyaya hər hansı güzəştə getmək niyyətində deyil.

Bundan əvvəl Kelloq deyib ki, Putinlə danışıqlardan imtina ABŞ-nin hazırkı prezidenti Co Baydenin əsas səhvidir.

*Gülayə Mecid*

# Türkiyə ordusu Suriyaya girməyə hazırlaşır

***Türkiyə silahlı qüvvələri Suriyada Kürdüstan Fəhlə Partiyasına (PKK) qarşı mümkün əməliyyata görə hazır vəziyyətə gətirilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Türkiye" qəzeti hərbi mənbələrə istinadən yazıb.

Qeyd olunub ki, Ankara Suriyanın yeni hakimiyyət orqanlarından PKK-ya qarşı lazımi tədbirlər görməyi tələb edib. İndi Türkiyə hadisələrin istənilən inkişafına, o cümlədən hərbi əməliyyatlara hazırlaşır.

Yanvarın 7-də Türkiyənin xarici işlər naziri Hakan Fidan Suriyada yerləşən PKK üzvlərinə ultimatum verib. Onun sözlərinə görə, Türkiyə hakimiyyəti PKK təmsilçilərindən silahlarını yerə qoyaraq Suriya ərazisini tərk etməyi tələb edib. Bu təklifə məhəl qoyulmasa, Ankara hərbi əməliyyatlara başlaya bilər.

*Ağarza Elçinoğlu*

# "NATO ölkələri Rusiyanı cilovlamaq gücündə deyil"

***"Avropa ölkələri müdafiələrini gücləndirməlidirlər, lakin NATO Rusiyanı cilovlamaq gücündə deyil".***

"Unikal" xəbər verir ki, bu barədə "Financial Times" qəzeti yazıb.

Nəşr bildirir ki, "Rusiyadan artan təhlükə" və ABŞ-nin seçilmiş prezidenti Donald Trampın Avropa regionunun taleyinə biganəliyi səbəbindən Avropada təhlükəsizlik böhranı yaranır.

"NATO-nun hərbi analitikləri hesab edirlər ki, alyansın Rusiyanı effektiv şəkildə cilovlamaq üçün gücü yoxdur. Xüsusilə hava hücumundan müdafiə avadanlıqları, maddi-texniki təchizat, döyüş sursatları və təhlükəsiz kommunikasiya avadanlıqlarında çatışmazlıq var", - material müəllifləri qeyd ediblər.

*Gülayə Mecid*

# Ermənistan ehtiyatda olan hərbçilərini təlimlərə toplayır

***Ermənistanda fevralın 4-dən aprelin 18-dək birinci və ikinci dərəcəli ehtiyatda olan zabitlərin birinci qrupunun təlim-məşq toplanışları elan edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan hökuməti yanvarın 9-da keçirilən iclasda qərar qəbul edib.

Hərbçilər ən azı 25 təqvim günü təlim məşğələlərinə cəlb olunacaqlar.

# Paşinyan ATƏT-in Minsk qrupunun buraxılmasını təklif etdi

***Ermənistanın baş naziri Nikol Paşinyan regionda sabitliyin bərqərar olunması və Azərbaycanla sülhün əldə olunması ilə bağlı təkliflərini açıqlayıb.***



"Unikal" xəbər verir ki, bu barədə o, sosial şəbəkələrdə yazıb.

Ermənistanın baş naziri Berkaber-Voskepar bölməsində həyata keçirilən analoji prosesi, həmçinin iki ölkənin delimitasiya və demarkasiya komissiyalarının birgə fəaliyyətinin reqlamentini əsas götürərək, qarşılıqlı eskalator ritorikadan əl çəkməyi və sərhədin demarkasiyasına davam etməyi təklif edib. Paşinyanın sözlərinə görə, 90% hazır olan sülh müqaviləsi bağlamaq, "Sülh yollarının kəsişməsi" layihəsini həyata keçirmək, atəşkəs rejiminin pozulması hallarının araşdırılması üçün birgə mexanizm tətbiq etmək lazımdır.

Paşinyan saxlanılan şəxslərin probleminin həllini və harada olduğu bilinməyən insanların taleyinə aydınlıq gətirməyi vacib adlandırıb.

Ermənistan lideri silahlara qarşılıqlı nəzarət mexanizminin formalaşdırılmasını və qaçqınlarla bağlı məsələlərin hərtərəfli müzakirəsini, həmçinin ATƏT-in Minsk qrupunun buraxılmasını təklif edib.

O, həmçinin Ermənistan və Azərbaycanın beynəlxalq məhkəmələrdə qaldırdığı iddialardan imtina etməyə çağırıb.

Paşinyan qeyd edib ki, onun üçün Qərbi Azərbaycan Qarabağ, Tovuz, Ağstafa, Gədəbəy, Daşkəsən, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilandır. O, Naxçıvanı da bu siyahıya salmağı və başqa yerdə axtarmamağı təklif edib: "Qərbi Ermənistan isə Armavir, Talin, Maralik, İcevan, Berd, Çəmbərək, Vardenis, Cermuk, Gorus, Qafan, Nrnadzordur. Şərqi Ermənistan yoxdur və ola da bilməz".

*Ağarza Elçinoğlu*

# Ermənistan Aİ-yə daxil olması ilə bağlı qanun layihəsini təsdiqlədi



***Ermənistan hökuməti respublikanın Avropa İttifaqına qoşulması prosesinin başlanması haqqında" qanun layihəsini təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Baş nazir Nikol Paşinyan bildirib ki, konstitusiyaya görə, Aİ-yə və ya fövqəlmilli təşkilata daxil olmaq qərarı yalnız referendum yolu ilə verilə bilər: "Ermənistan Respublikası Aİ-yə yalnız referendum təyin edildikdə üzv ola bilər və konstitusiyamızda nəzərdə tutulmuş qaydada referendum iştirakçılarının lehinə qanunla müəyyən edilmiş miqdarda səslər alınacaq".

Onun sözlərinə görə, qanunun qəbulu ilə potensial referendumun keçirilib-keçirilməyəcəyinə qədər insanda müəyyən hərəkətlər barədə təsəvvür olmalıdır. Bu qanunun qəbulundan sonra biz Aİ ilə onların təsəvvür etdiyi, bizim təsəvvür etdiyimiz yol xəritəsini müzakirə edib, birlikdə yol xəritəsini tərtib etməliyik.

*Gülayə Mecid*

# "Moskva İrəvan və Bakı ilə münasibətləri inkişaf etdirəcək" - Peskov

***Moskva Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasında maraqlıdır.***



"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Diplomatın sözlərinə görə, İrəvan və Bakı ilə münasibətlər bundan sonra da inkişaf etdiriləcək: "Biz Qafqazda sülh, sabitlik, proqnozlaşdırıla bilənlik, qarşılıqlı inam və təhlükəsizlik mühiti istəyirik. Bizim həm Azərbaycanla, həm də Ermənistanla yaxşı münasibətlərimiz var və o əlaqələr bizim üçün əzizdir. Biz bu münasibətləri daha da inkişaf etdirmək üçün bizdən asılı olan hər şeyi etmək niyyətindəyik".

*Ağarza Elçinoğlu*

# Meymunçiçəyi virusunun yeni ştamı aşkar edildi

***Çində meymunçiçəyi virusunun yeni ştamının epidemiyası qeydə alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Çinin Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi açıqlayıb.

"Bu yaxınlarda Çində meymunçiçəyi virusunun klaster epidemiyası aşkar edilib. İnfeksiyanın mənbəyi Konqo Demokratik Respublikasına səfər etmiş və orada yaşamış əcnəbi vətəndaş olub", - mərkəzin rəsmi saytında deyilir. Epidemiya aşkar edildikdən sonra Çin və onun Zhejiang, Guangdong, Pekin və Tianjin şəhərləri kimi ayrı-ayrı bölgələri dərhal epidemioloji araşdırma, risk qiymətləndirməsi, diaqnoz və müalicəni həyata keçirmək üçün birgə profilaktika və nəzarət mexanizmini işə salıb.

*Ağarza Elçinoğlu*

# "Prezidentin sarayına hücum edənlər narkotikin təsirində olublar" - Çad rəsmisi

***Yanvarın 8-də Çad prezidentinin iqamətgahına hücum edənlər narkotikin təsirində olublar.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin xarici işlər naziri, Çad hökumətinin rəsmi nümayəndəsi Abderaman Kulamalla məlumat verib. "Bu insanlar narkotik istifadə edib daha sonra iqamətgaha hücuma keçiblər", - rəsmi ifadə edib. Kulamalla onu da əlavə edib ki, iğtişaşçılar hadisə yerinə avtobusla gəliblər. Onun sözlərinə görə, təhlükəsizlik qüvvələri dövlət başçısının iqamətgahına hücuma çevik və aydın cavab verib.

Nəticədə 19 nəfər hücumun qurbanı olub, onlardan 18-i hücumçu olub.

*Gülayə Mecid*

01_27 IYUI-QARA.qxd 1/9/2025 8:15 PM Page 16



# Ronaldo rəhbərlik qarşısında şərt qoydu




***Portuqaliya millisinin ulduzu Kriştiano Ronaldo hazırda oynadığı Səudiyyə Ərəbistanının “Əl-Nəsr” komandasının rəhbərliyi qarşısında şərt qoyub.***

”Unikal” xəbər verir ki, bu barədə İspaniya mətbuatı yazıb.

Ronaldo klub rəhbərliyinə ”Real Madrid”dəki keçmiş tərəfdaşının ona qoşulacağı təqdirdə komandada qalacağını bildirib: ”Ronaldo çempion olmaq istəyir və bunun üçün komandanı portuqalların dostları gücləndirməlidir. Portuqaliyalının çempion komanda yaratmaq üçün yerinə yetirilməsini istədiyi istəklər arasında ”Real Madrid”də beş mövsüm bərabər oynadığı Casemiro ilə yenidən görüşmək də var”.

Portuqaliyalı ”Yuventus”a keçməzdən əvvəl Casemiro ilə 2013-2018-ci illərdə ”Real Madrid”də birlikdə oynayıb. Casemiro bundan dörd il sonra Madriddən ayrıldı və hazırda ”Mançester Yunayted”də oynayır.

***Ağarza Elçinoğlu***

# "Limit ləğv edilsə, olmayan futbolumuz da yoxa çıxacaq"

***”Legioner limiti aradan qaldırılarsa, qərarın düzgün olub-olmayacağını zaman göstərəcək. Amma fikrimcə, bu, Azərbaycan futbolu üçün heç də faydalı olmayacaq. Bəlkə kimin üçünsə, nə üçünsə düzgün ola bilər. Lakin həqiqətən də belə qərar futbolumuzu geri aparacaq”.***

Bu sözləri QOL.az saytına açıqlamasında Azərbaycan millisinin sabiq üzvü, hazırda ”Araz-Naxçıvan”ın məşqçisi işləyən Əfran İsmayılov deyib.

Son vaxtlar AFFA İcraiyyə Komitəsinin növbəti iclasında Azərbaycan futbolunda legioner limitinin tamamilə ləğvi ilə bağlı məsələnin müzakirə ediləcəyinə dair xəbərlər yayılıb. Hazırda bu məsələ mediada mütəxəssislər tərəfindən müzakirə edilir.

Ə.İsmayılov bildirib ki, legioner limiti aradan qaldırılarsa, yerli futbolçular problemlərlə üzləşəcəklər: ”Onda gərək akademiyaları, futbolçu yetişdirməyi, strategiyanı kənara qoyaq. Avrokuboklar üçün oynayan komandalar legionerlərlə daha irəli gedəcək. Amma fakt budur ki, yerli futbolçular yetişməyəcək. Heç kim akademiyaya önəm verməyəcək.

Bəziləri deyir ki, legioner limiti ləğv olunsa, azərbaycanlı futbolçular xarici klublarda oy-



nayacaqlar. Kim gedəcək? Hansı azərbaycanlı futbolçu xaricdə oynayacaq? Bu da maraqlıdır. Cəmi 1-2 futbolçu gedə bilər. Onlar da Toral Bayramov, Elvin Cəfərquliyevdir. Bir sözlə, legioner limitinin ləğvi mövzusu çox acınacaqlı məqamdır. 4-5 klub legionerlər gətirəcək, qalanları da hansı azərbaycanlıları transfer edəcək, hansılar etməyəcək, sual altındadır. Bu, Azərbaycan futbolunun çöküşü olar.

Necə olacağını zaman göstərəcək. Hansı qərar qəbul edilsə, çalışacağam ki, hörmətlə yanaşım. Amma öz şəxsi fikrimdir ki, bu, məyusedici bir qərar olar. O zaman Azərbaycanın olmayan Azərbaycan futbolu da yoxa çıxacaq. Hansı futbolçular milli komandada oynayacaq? Onsuz da çox yerli futbolçu oynamırdı. Çünki uşaq yetişirdi, 19, 21 yaşa kimi gəlirdi. Əsas komandalara çatanda isə məşqçilər risk edib onları oynatmırdılar. Həmin məşqçini də başa düşürdüm”.

Əfran İsmayılov düşünür ki, limit ləğv olunsa, klublar yerli futbolçunu heç yaxına da buraxmayacaqlar: ”U-19-da da oynatmaq istəməyəcəklər. Çünki biləcəklər ki, onsuz da əsas komandada çıxış etməyəcək”.

Gənc mütəxəssis hazırkı legioner limitinin - 7+4 qaydasının qorunmasının daha məqsədəuyğun olduğunu bildirib: ”Legioner limiti normal idi də. İndi 7+4 qaydasıdır. Sonra qərar verildi ki, yeni mövsümdən 8+3 olsun. Bu da başadüşülən idi. Ən azından 3 yerli futbolçu oynayır. Məcburiyyətdən azərbaycanlı futbolçuları tapıb-çıxarardıq. İstəyirdik ki, yerli futbolçular daim formada qalsınlar. Çünki onlar sonra gedib millidə çıxış edirlər. Amma limitin dəyişməyi, 11 legionerin oynamağı hansı faydanı verəcək, bilmirəm. Zaman göstərəcək. Görünən odur ki, azərbaycalı futbolçular yox vəziyyətinə gəlib çıxacaqlar”.

# “Beşiktaş” xorvatiyalı mütəxəssislə anlaşdı



***Türkiyənin “Beşiktaş” komandasının yeni baş məşqçisi məlum olub.***

”Unikal” Türkiyə mətbuatına istinadən xəbər verir ki, İstanbul nəhəngi xorvatiyalı mütəxəssis Niko Kovaçla anlaşıb. 53 yaşlı çalışdırıcı ilə klub prezidenti Serdal Adalı arasında telefon zəngi vasitəsilə razılıq əldə olunub.

Onunla 3.5 illik müqavilə imzalanacaq.

Qeyd edək ki, Niko Kovaç məşqçilik karyerası ərzində daha əvvəl “Bavariya”, “Volsburq”, “Ayntraxt” (hər üçü Almaniya),“Monako” (Fransa) və Xorvatiya millisində işləyib.

# "Şamaxı" braziliyalı futbolçunu transfer etdi

***“Şamaxı” qış fasiləsində növbəti transferini reallaşdırıb.***

Klubdan ”Unikal”a verilən məlumata görə, bölgə təmsilçisi hücumçu Mixael Tike Dias Santosu heyətinə qatıb. Braziliyalı forvardla il yarımlıq (6 ay + 1 il) müqavilə imzalanıb.

Qeyd edək ki, 31 yaşlı futbolçunun son klubu Litvanın “Hegelmann” komandası olub.

# "Barselona" Superkubokun finalında

***İspaniya Superkubokunda finala yüksələn ilk komanda bəlli olub.***

”Unikal” xəbər verir ki, yarımfinalda ”Atletik” (Bilbao) və ”Barselona” komandaları qarşılaşıb. Görüş Kataloniya təmsilçisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qolları Qavi və Lamin Yamal vurublar. Bununla da ”Barselona” adını finala yazdırıb.

Yarımfinalın digər görüşündə ”Real Madrid” ilə ”Malyorka” kollektivləri üz-üzə gələcək.

# "Liverpul" "Tottenhem"ə məğlub oldu

***İngiltərə Liqa Kubokunda yarımfinal mərhələsinin ilk oyunu keçirilib.***

”Unikal” xəbər verir ki, ”Tottenhem” doğma meydanda ”Liverpul”la qarşılaşıb. Görüş ev sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Yeganə qolu 86-cı dəqiqədə Lukas Berqval vurub. Komandalar arasında cavab matçı fevralın 7-də reallaşacaq.

Yarımfinalın digər oyununda bu gün ”Nyukasl” ”Arsenal”ı qəbul edəcək.

# Türkiyə Kubokunda qrup mərhələsinin növbəti oyunları keçirildi



***Futbol üzrə Türkiyə Kubokunda qrup mərhələsinin birinci turunun növbəti oyunları keçirilib.***

”Unikal” xəbər verir ki, A qrupunda ”Trabzonspor” ”Antalyaspor”u 3:0 hesabı ilə məğlub edib.

C qrupunda ”Eyüpspor” ”Boluspor”a 1:0 hesabı ilə qalib gəlib. ”Qalatasaray” isə doğma meydanda ”Başakşəhər”lə heç-heçə edib - 2:2.

D qrupunda isə ”Kirklarelispor” evdə ”Bodrum”la 4:4 hesablı bərabərliyə razılaşıb.

# Keylor Navas karyerasını Çilidə davam etdirəcək

***PSJ-nin və ”Real”ın keçmiş qapıçısı Keylor Navas karyerasını Çilidə davam etdirməyə hazırlaşır.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, hazırda azad agent statusu daşıyan 38 yaşlı qolkiper ”Boka Xuniors”la danışıqlar aparırdı. Lakin tərəflər razılığa gələ bilməyiblər.

Məlum olub ki, Navas Çilinin ”Kolo-Kolo” klubuna keçməyə yaxındır.

Qeyd edək ki, Keylor Navasın son klubu PSJ olub. O, 2019-2024-cü illərdə Paris təmsilçisinin formasını geyinib. Futbolçu bu müddət ərzində bütün turnirlərdə 115 matça çıxıb, 52-də qapısını toxunulmaz saxlayıb.